# ICESCO Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir

10

# Dövlət siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır


SƏS

№ 090 (6531) 24 may 2022-ci il. Qiyməti 60 qəpik




İlham Əliyev: "Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır"

9

# BRÜSSEL GÖRÜŞÜ:

## Sülh danışıqları istiqamətində yeni bir addım



2

Prezident İlham Əliyev: "Sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvarıq"



“Siyasi dialoq mədəniyyəti dövlətimizin güclənməsinə, xalqımızın rifahına böyük töhfələr verəcək” 3



## SOVET TƏHSİLİ müasir təhsildən nə ilə fərqlənir? 8



# İrəvanın mərkəzində zorlanan demokratiya

4





Levan Osidze: “Ermənilər gürcü xalqına qarşı soyqırım törədiblər” 5

Xankəndi ermənilərindən növbəti təxribat - Bu dəfə də sülhməramlılar dəstək verdi



## DIQQƏT: Şuşa Real Məktəbi belə görünəcək



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam imzalayıb.

# BRÜSSEL GÖRÜŞÜ:
## Sülh danışıqları istiqamətində yeni bir addım

*Prezident İlham Əliyev: "Sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvarıq"*

***"Bu ilin aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirib və bu xüsusda danışıqlara hazırdır".Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü zamanı deyib.Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.***



### KEÇİRİLƏN GÖRÜŞLƏRDƏ ERMƏNİSTANLA AZƏRBAYCAN ARASINDA SÜLH MÜQAVİLƏSİ ÜZRƏ DANIŞIQLARDA UĞURLU ADDIMLAR

Cari ilin may ayının 22-də Belçikanın paytaxtı Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti üçtərəfli görüş keçirildi. Bu, Azərbaycanın Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən yeddinci görüş idi. Ən əsası isə, keçirilən görüşlərdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün möhkəm zəmin yaratmaqla yanaşı, həm də irəliləyişmələrdən əldə olunan nəticə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanmasına dair dövlət başçılarının xarici işlər nazirlərinə təlimat verməmləri ilə bağlı razılaşmalar, uğurlu addımların atılmasıdır.

### AZƏRBAYCAN SÜLH PROSESİNDƏ QARŞIYA QOYDUĞU HƏDƏFLƏRƏ DOĞRU İNAMLA İRƏLİLƏYİR

Ən əsas bir məqam isə, aprelin 6-da keçirilən üçtərəfli görüşdə İkinci Qarabağ müharibəsinin qalib ölkəsi kimi Azərbaycan sülh danışıqlarına başlanılması və sazişin bağlanması istiqamətində vacib 5 şərtini artıq Ermənistana çatdırdı. Bu şərtlər: Dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Sözsüz ki, bu, real faktordur ki, Prezident İlham Əliyev qalib komandan kimi yalnız bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə məğlub ölkənin rəhbəri ilə sülh müqaviləsini imzalaya bilər. Daha dəqiq desək, qalib Azərbaycan Prezidentinin təklifinə əməl olunarsa, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilər. Lakin Brüssel görüşündə məğub ölkənin rəhbəri Nikol Paşinyanın Azərbaycanın irəli sürdüyü, regionda sabitlik, təhlükəsizlik və inkişaf üçün vacib olan beş maddəlik təklifi də qəbul etməli idi və qəbul etdi də! Bir sözlə, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Bunun da məqsədi, ilk növbədə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, Cənubi Qafqazda sülhün bərqərar olmasıdır. Çünki Avropa İttifaqı Azərbaycan Prezidenti İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Belə olan halda Ermənistanın müxtəlif iddialarla prosesi ləngitmək cəhdləri iflasa məhkumdur.

### PREZİDENT İLHAM ƏLİYEVİN İRƏLİ SÜRDÜYÜ SÜLH MODELİ TƏKCƏ AZƏRBAYCAN DEYİL, BÜTÜN REGİON DÖVLƏTLƏRİNİN TƏHLÜKƏSİZLİYİ VƏ İNKİŞAFI ÜÇÜN AÇAR ROLUNU OYNAYIR

Qeyd edək ki, mayın 22-də Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə baş tutan Ermənistan və Azərbaycan liderlərinin görüşü tərəflər arasında sülh prosesində çox əhəmiyyətli mərhələ oldu. Sammitin nəticələri göstərir ki, bu formatda aprelin 6-da keçirilən sonuncu görüşdən ötən dövr ərzində mühüm irəliləyişə nail olunub. Bu səbəbdəndir ki, Azərbaycan sülh prosesində qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Ermənistan rəhbərliyi isə qarşısına qoyduğu öhdəliklərə tam və vaxtında əməl etmədi. Sərhəd komissiyasının yaradılması cəhdi aprelin 6-da razılaşdırıldığı kimi, həmin ayın sonuna qədər baş tutmadı. Bunun əsas səbəblərindən biri də Ermənistan rəhbərliyinə daxildən və xaricdən təzyiq edən qüvvələri, əvvəlki kriminal rejimin qalıntılarını, radikal diaspor təşkilatlarını və onlara havadarlıq edən dövlətləri göstərmək olar. Xüsusi olaraq, bir daha vurğulamaq istərdim ki, Prezident İlham Əliyevlə bütün görüşlərdə olduğu kimi Paşinyan aprelin 6-da Brüsseldə keçirilən görüşü zamanı da zərbə aldı. Paşinyan bunu bilməlidir ki, bütün müqavimət cəhdləri növbəti yeni zərbə ilə nəticələnəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa bir o qədər yaxşı olar. Əgər Ermənistan bunu danışıqlar yolu ilə anlamasa, o zaman "Dəmir yumruq" yenidən işə düşə bilər.

### ŞARL MİŞEL: "SÜLH SAZİŞİNƏ GƏLİNCƏ, LİDERLƏR ERMƏNİSTAN İLƏ AZƏRBAYCAN ARASINDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİ TƏNZİMLƏYƏN GƏLƏCƏK SÜLH MÜQAVİLƏSİNƏ DAİR MÜZAKİRƏNİ DAVAM ETDİRMƏK BARƏDƏ RAZILIĞA GƏLİBLƏR"

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirib ki, Cənubi Qafqazda vəziyyət və hər iki ölkənin Avropa İttifaqı ilə münasibətlərinin inkişafına, habelə sərhəd regionuna əsas diqqəti yönəltdik: "Bizim humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirəmiz oldu və biz itkin düşmüş insanların taleyinə də toxunduq. Şarl Mişel Avropa İttifaqının hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcəyini bildirib. Şarl Mişel bildirib ki, Brüssel iqtisadi zəmində Bakı və İrəvanla üçlü iqtisadi mexanizm çərçivəsində əməkdaşlığa maraq göstərir, ancaq bunun üçün iki ölkə arasında sülh sazişi imzalanmalıdır. Biz buna hazırıq, yetər ki, Ermənistan Azərbaycanın sərhədlərini tanısın, sülh sazişi imzalasın və dəhlizin açılmasıyla kommunkasiya xətlərinin çalışmasına şərait yaratsın.

### İLHAM ƏLİYEV, ŞARL MİŞEL VƏ NİKOL PAŞİNYAN YAYDA YENİDƏN GÖRÜŞƏCƏKLƏR

"Biz sıx təmasda qalmağa razılaşdıq və iyul-avqust aylarına qədər eyni formatda yenidən görüşəcəyik". Bunu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair açıqlamasında qeyd edib. "Avropa İttifaqı tərəflərlə birlikdə hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcək. Mən, həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini də vurğuladım və Avropa İttifaqı öz dəstəyini gücləndirməyə hazırdır.Biz sıx təmasda qalmağa razılaşdıq və iyul-avqust aylarına qədər eyni formatda yenidən görüşəcəyik" - deyə Avropa İttifaqı Şurasının Prezidenti çıxışını yekunlaşdırıb.Bütün bunları nəzərə alaraq söyləmək olar ki, Brüssel görüşü Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində atılan növbəti addımdır. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin diplomatiyasının uğuru kimi dəyərləndirilə bilər.

***RƏFİQƏ KAMALQIZI***

# Baş nazir Əli Əsədov Estoniya parlamentinin sədri Yuri Ratas ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 23-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratas ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Estoniya münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib.**

İki ölkə arasında siyasi, ticari-iqtisadi, sərmayə qoyuluşu, nəqliyyat, enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.



# “Siyasi dialoq mədəniyyəti dövlətimizin güclənməsinə, xalqımızın rifahına böyük töhfələr verəcək”

*Prezident Administrasiyasında Ağ Partiyasının sədri ilə görüş keçirilib*



**Mayın 23-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə aparılan iqtidar-müxalifət dialoqu çərçivəsində Ağ Partiyasının sədri Tural Abbaslı ilə görüş keçirib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyev tərəfindən aparılan sistemli islahatların bütün sahələri əhatə etdiyini, bu islahatların dövlətimizin güclənməsi, əhalinin rifah halının yaxşılaşması, postmüharibə dövrünün çətinliklərinin aradan qaldırılması, işğaldan azad edilmiş torpaqlarımızın bərpası və soydaşlarımızın öz doğma yurdlarına qayıtması məsələləri ilə yanaşı, ölkəmizdə baş verən siyasi prosesləri də ehtiva etdiyini qeyd edib. Bunun nəticəsidir ki, Azərbaycanda fəaliyyət göstərən mütərəqqi siyasi qüvvələr Azərbaycan dövlətçilik tarixinin ən çətin və ən şərəfli məqamında - Vətən müharibəsi zamanı ümummilli dəyərlər naminə öz birliklərini ortaya qoydular. Siyasi qüvvələrin Vətən naminə birgə bəyanat və müraciətlərinin ölkə əhalisinin Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşdiyinin göstəricilərindən biri olduğu vurğulanıb. Ölkəmizdə fəaliyyət göstərən partiyalarla hakimiyyət arasında və partiyalar arasında gündən-günə daha da dərinləşən və inkişaf edən siyasi dialoq mədəniyyətinin dövlətimizin güclənməsinə, xalqımızın rifahına böyük töhfələr verəcəyi qeyd olunub.

Ağ Partiyasının sədri Tural Abbaslı, ilk növbədə, siyasi dialoq prosesi çərçivəsində keçirilən görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirib. Qeyd edib ki, dövlətimizin güclənməsi və xalqımızın rifah halının yaxşılaşması istiqamətində həyata keçirilən dövlət siyasətini dəstəkləyir, bu siyasətin hər bir vətəndaşı əhatə etməsi üçün siyasi dialoq prosesinin faydalı olmasına inanır. Əhalinin həssas təbəqəsinə, xüsusən Vətən müharibəsi şəhidlərinin ailələrinə, qazilərə, digər müharibə iştirakçılarına və onların ailələrinə diqqətin daha da artırılmasının hazırkı məqamda olduqca vacib olduğu qeyd edilib.

Görüşdə, həmçinin ölkəmizdə mövcud olan və Azərbaycan dövlətçiliyinin əbədi olması üçün çalışan bütün qüvvələrin Vətən müharibəsi Zəfərinin qazanılmasında pay sahibi olması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnən uğurlu xarici siyasətin Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirməsi, Ermənistanın və onların himayədarlarının xalqımızın birliyi qarşısında bütün cəbhələrdə məğlubiyyətlə qarşılaşması, ölkədə aparılan siyasi dialoq prosesinin müxtəlif formatlarda inkişaf etdirilməsi və başqa mövzularda səmərəli fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində aparılan xarici siyasət barədə müzakirələr aparılıb. Avropa İttifaqının hərtərəfli sülh sazişi ilə dəstəklənən regionda davamlı sülhün təmin edilməsi məqsədilə münaqişənin aradan qaldırılmasında, əməkdaşlıq və etimad mühitinin yaradılmasında səyləri yüksək qiymətləndirilib. Eyni zamanda, 2021-ci il dekabrın 14-də, 2022-ci il aprelin 6-da və mayın 22-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş naziri arasında baş tutan görüşlərin regionda sülhün bərqərar edilməsi, sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və nəticədə regionda yaşayan bütün insanların rifahı üçün təhlükəsiz, sabit və firavan şəraitin qurulması üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sonda tərəflər iqtidar-müxalifət siyasi dialoqunun yeni formatlarda davam etdirilməsinin və bununla bağlı yeni təkliflərin dəyərləndirilməsinin önəmini vurğulayıb, gələcəkdə ölkəmiz üçün olan məsələlərin siyasi partiyaların iştirakı ilə birgə müzakirələrinin keçirilməsinin əhəmiyyətini qeyd ediblər.





# YAP Gənclər Birliyinin nümayəndə heyəti Adana şəhərində keçirilən ”Bir Gənçlik Şöleni”ndə iştirak edib



20-22 may 2022-ci il tarixlərində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdə olub.

Türkiyənin Adana şəhərində Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının sədri Eyyüp Kadir İnan, Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran, millət vəkilləri, AK Partinin nümayəndələri, o cümlədən 22 xarici ölkənin siyasi partiyalarının gənclər təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Azərbaycan nümayəndə heyəti göstərilən qonaqpərvərliyə və dəvətə görə AK Parti rəhbərliyinə minnətdarlığını bildirib.

Həmçinin YAP Gənclər Birliyinin nümayəndə heyəti Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyip Ərdoğanın iştirakı ilə Türkiyədən, o cümlədən dünyanın müxtəlif ölkələrindən 150 mindən çox gəncin iştirak etdiyi Adana şəhərində keçirilən ”Bir Gənçlik Şöleni”inə qatılıb.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibində YAP Gənclər Birliyinin sədr müavinləri Fəsli Nəbiyev, Sevinc Qasımova, üzvlər - Ülviyyə Axundova, Emil Aslanlı təmsil olunub.

# Misir və Oman mətbuatı Azərbaycanın regional sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi səylərindən yazıb



Misirin ”Dustur” qəzeti və Omanın rəsmi agentliyinin saytında Azərbaycanın regional sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində səylərindən bəhs edən yazılar dərc olunub. AZƏRTAC xəbər verir ki, materiallarda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Avropa Şurası Nazirlər Komitəsinin İtaliyanın Turin şəhərində keçirilən 132-ci sessiyasında çıxışına geniş yer verilib. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, nazir Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində rəsmi Bakının ardıcıl səylərinin davam etdiyini, aprelin 6-da Avropa İttifaqı Şurası Prezidentinin vasitəçiliyi və iştirakı ilə iki ölkənin liderlərinin Brüsseldə baş tutan görüşünün bu prosesə müsbət təsir göstərdiyini qeyd edib. O vurğulayıb ki, həmin görüşün yekunlarına görə, iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı xarici işlər nazirlərinə təlimat verilib, həmçinin iki dövlət arasında sərhədin delimitasiya və demarkasiyası ilə bağlı Birgə Sərhəd Komissiyasının təşkili razılaşdırılıb.

Sonda qeyd edilib ki, Azərbaycanın xarici işlər naziri rəsmi Bakının regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində Ermənistanla əməkdaşlıq etməyə hazır olduğunu bildirib, həmçinin bu istiqamətdə xüsusi rola malik etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə Avropa Şurasının töhfə verə biləcəyini deyib.

# İrəvanın mərkəzində zorlanan demokratiya

***Ermənistanın bütün vətəndaşlarının hüquqlarının pozulduğu və ümidlərinin puça çıxdığı indiki vəziyyətdə Aİ-nin Ermənistandakı səfirinin cinsi azlıqların müdafiəsi ilə bağlı sözləri, ifadə etdiyi fikirlər sadəcə olaraq gülünc səslənir. İndi öz ölkəsi, öz hakimiyyəti tərəfindən hüquqları pozulan, haqları tapdalanan, aldadılan, meydanlarda zor tətbiq edilən, polis bölmələrinə aparılan saysız-hesabsız bu qədər erməni olduğu halda Aİ-nin bu ölkədəki səfirinin cinsi azlıqların müdafiəsi ilə bağlı həyəcan təbili çalması elə ermənilərin özlərini də bərk qıcıqlandırıb.***



Həqiqətən də bu qədər gülünc vəziyyət elə Ermənistanda müşahidə oluna bilərdi və bununla bağlı spekulyasiyalar indi erməni cəmiyyətində kifayət qədərdir. Ermənilər özləri də etiraf edirlər ki, erməni xalqının hər bir nümayəndəsinin öz hökuməti tərəfindən hüquqlarının pozulduğu bir vaxtda Aİ-nin bu ölkədəki səfirinin ifadələri tamamilə yersizdir. Məsələ burasındadır ki, artıq öz ölkələrini demokratik ölkə kimi sırımaq istəyənlər də, bu ölkəni demokratik ölkə kimi təqdim etmək istəyənlər də İrəvanın mərkəzində demokratiyanın zorlandığını etiraf etmək məcburiyyətində qalıblar və reallıq məhz budur.

Ermənistanın paytaxtında, elə İrəvanın mərkəzindəcə "Freedom House" beynəlxalq təşkilatının "Ermənistan demokratiyası" mövzusunda forumunun keçirildiyi "Marriott Armenia" mehmanxanasına toplaşanlar bu ölkədə demokratiyanın zorlandığı qənaətində imişlər və çox gülünc olsa da cinsi azlıqları nəzərdə tuturlarmış. Əslində, "Ermənistan demokratiyası" mövzusu belə ikrah doğurur, çünki bu ölkədə heç zaman demokratiya olmayıb və hər iddiaları kimi demokratiya da bu ölkədə qondarma olub, amma deyəsən Aİ-nin bu ölkədəki səfiri ya indi yuxudan ayılıb, ya da indi etiraf etmək məcburiyyətində qalıb.

Aİ-nin Ermənistandakı səfiri Andrea Viktorin bəyan edib ki, Ermənistanda siyasi dəyişikliyə nail olmaq üçün vətəndaş cəmiyyətinin siyasətin hazırlanmasında və idarəetmə islahatlarında fəal iştirakı vacibdir. Deyəsən, Andrea Viktorin Ermənistanı tənqid etmək qərarına gəlib, amma bunu elə edib ki, sadəcə gülünc səslənib. İşğalı dövlət siyasəti hesab edən bir ölkədə polisin nümayişçilərə qarşı etdiyi bu qədər zorakılıqların fonunda cinsi azlıqların hüquqlarının müdafiəsinə qalxmaq həqiqətən də qeyri adi görünür və ikrah doğurur. Belə çıxır ki, Ermənistan bütövlükdə ya cinsi azlıqlardan ibdarətdir, ya da cinsi azlıqlar Aİ-nin səfirinin gözündə erməni xalqının nümayəndələrindən daha üstün görünür.

"Keçən həftə qadınların və uşaqların hüquqlarını qoruyan və məişət zorakılığı ilə mübarizə aparan, LGBT icmasına dəstək verən QHT-lərin şikayətlərini eşitdim, onlara hücum edilir, eyni qruplar hüquqlarının məhdudlaşdırılmasından şikayətlənirlər və Ümumdünya İnsan Hüquqları Bəyannaməsi seçici xarakter daşımır", deyə Viktorin bildirib. Görəsən, həmin o Andrea Viktorin Ermənistanda baş verən başqa zorakılıqlardan xəbərsizdirmi? Yəni, İrəvanda baş tutan mitinqlər, aksiyalar zamanı Ermənistan vətəndaşlarına qarşı bu hökumətin göstərdiyi təzyiq, tətbiq etdiyi zoru da bu səfir görə bilməyib? Elə isə, cinsi azlıqların hüquqlarının pozulduğunu necə görüb? Bu sualın cavabını elə Aİ-nin Ermənistandakı səfiri Viktorin özü bilər.

Görünən odur ki, geylərin və lezbiyanların Ermənistanda hüquqları qorunmalıdır, digərlərinin hüquqları tapdalansa belə. Qərbdə bunu çoxdan kulta çeviriblər. Əbəs yerə deyil ki, məhz buna görə də indi bu ölkədə, Ermənistanda bir çoxları öz "qeyri-ənənəviliyi" ilə öyünürlər. Səbəb isə, əlbəttə ki, Qərbin bu ölkədə cinsi azlıqlara daha çox üstünlük verməsi, mütəmadi olaraq, vaxtaşırı hüquqlarının müdafiəsinə qalxmasıdır. Bunlar Ermənistana aid reallıqlardır və indi ermənilər bu reallıqla hesablaşmalı olduqlarını görüb qıcıqlanırlar.

Aİ-nin Ermənistandakı səfirinin sözləri bu ölkənin bütün vətəndaşlarının hüquqlarının və ümidlərinin pozulduğu indiki vəziyyətdə çox yersizdir. Viktorin hakimiyyətin etirazçılara qarşı necə dəhşətli güc tətbiq etdiyini görməyə bilməzdi. O, hakimiyyəti saxlamaq üçün polisdən istifadənin demokratiyaya qarşı cinayət, qanunun aliliyi normalarından uzaqlaşma olduğunu başa düşmür yoxsa? Saysız-hesabsız nümayişçinin polis məntəqələrinə aparılması, onlara qarşı zor tətbiq edilməsi sirr deyil ki, Aİ-nin Ermənistandakı səfiri bundan xəbərsiz olsun. Bu hadisələri Ermənistan hakimiyyəti gizlətmir də. Onlar bunu tam normal qəbul edirlər və ört-basdır etmək niyyətlərinin olmaması da bunu təsdiqləyir. Hətta, bu hadisələr zamanı polisə mükafatların paylanması, repressiya aparatının, cəza orqanlarının mükafatlandırılması bu ölkədə diktaturanın olduğunu, buna rəvac verildiyini sübut edən faktlar, arqumentlərdir. Ermənistan paytaxtında insanların səsləndirdiklərini də, hökumət əleyhinə ifadələrini də, Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndələrinin müxalifət deputatlarını zala buraxmadığını da Viktorin eşitməyə, görməyə bilməzdi və İrəvanın düz mərkəzində demokratiyanın zorlanmasından xəbərsiz olmaq mümkün deyildi, amma o cinsi azlıqlarla bağlı məsələdə demokratiyanın zorlanması qənaətindədir. O, LGBT icmasının hüquqlarından danışır və belə bir mövqedə niyə olmasını da özü daha yaxşı bilir və nədənsə azlıqların hüquqlarının çoxluğun hüquqlarından daha üstün olduğunu, diktatura təhlükəsindən daha vacib olduğunu düşünür.

Yəni, həqiqətən budurmu Ermənistandan tələb olunan demokratiya? Yaxud, Ermənistanı guya demokratik ölkə kimi göstərmək istəyənlər cinsi azlıqları nəzərdə tuturdularmı? Ermənistan üçün demokratiya anlayışı bunu, cinsi azlıqların hüquqlarını özündə ehtiva edirmi? Bu ölkədə demokratiyanın təzahürü kimi dünyaya sırımaq istədikləri bu idimi və bununla durmadan fəxr etmək niyyətində idilərmi?



Deməli, Ermənistanda demokratiya deyiləndə bu ölkənin vətəndaşlarının haqq və hüquqlarının müdafiəsi deyil, insanların azad sözə sahib olmaları, ifadə azadlığı deyil, cinsi azlıqların hüquqlarının müdafiəsi nəzərdə tutulurmuş və bununla fəxr etmək istəyirlərmiş. Belə bir iyrənc demokratiya elə Ermənistanın özünə qalsın və bacardıqca bununla fəxr etsinlər, belə bir demokratiya onlardan başqa heç kimə lazım deyil. Real fakt, reallıq ondan ibarətdir ki, İrəvanın mərkəzində zorlanan demokratiya heç kimi maraqlandırmır və bu ölkədə demokratiyadan söhbət belə gedə bilməz.

***İnam Hacıyev***

ANALİTİK + GÜNDƏM - AKTUAL

# Brüssel nəticələri - erməni tərəfi dərk etməlidir: "artsax" yalnız xəyallarda qalacaq!

Qarşı tərəf yeni reallıqları qəbul etməli, onunla barışmalıdır, əks halda əldə edilmiş razılaşmaların əbədi olaraq masada qalmasında Bakının nə səbri, nə də təmkini müddət baxımından uzadıla bilməz



***Qarabağ məsələsinin münaqişə olaraq "həll edilməməsi" iddiaları bir sıra Ermənistan KİV-ləri, bu ölkənin xarici ölkələrdəki lobbist dayaqları, siyasətçiləri və analitikləri tərəfindən tutuquşularda olduğu kimi təkrarlanmaqdadır.***

O da əbəs deyil ki, Ermənistanın baş naziri Nikol Paşinyan, ölkənin XİN rəhbəri Ararat Mirzoyan sonuncu - 22/23 may Brüssel görüşünə qədər məhz bu ətrafda fikirlərini bəyan edirdilər, hətta Azərbaycanın 5 bəndlik təkliflərini daha əvvəl qəbul etdiklərini etiraf etsələr də, sonradan "6 bənddən" ibarət öz təkliflərini sözün əsl mənasında danışıqlar masasına sırımağa cəhdlər göstərirdilər. Hətta bütün bunlar istər Moskvada, istərsə də əvvəlki Brüssel görüşlərindən sonra üzə çıxmışdı...

### Sonuncu Brüssel görüşləri nə vəd edir?

Beləliklə, sonuncu Brüssel görüşündə bəzi məqamlara aydınlıq gətirildi və ilk baxışdan belə nəticə hasil etmək olar ki, Azərbaycan və Ermənistan mühüm razılaşmalar əldə ediblər. Təxminən 5 saata yaxın davam edən danışıqların ilkin nəticələri bunlardır:

-Sərhədlərin delimitasiyası və təhlükəsizliyi üzrə komissiyaların ilk birgə iclasları keçiriləcək. İclasın gündəmi ictimailəşdirilib.

-Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan Zəngəzur dəhlizi üzərindən tranziti razılaşdırıblar.

Qeyd edək ki, Şarl Mişelin bəyanatında dəhliz Qərbi Azərbaycan-Naxçıvan kimi vurğulanıb. Həmçinin, hər iki ölkənin beynəlxalq daşınmaları barədə də razılaşmalar əldə olunub.

-Sərhədlərin idarə olunması prinsipləri razılaşdırılıb - təhlükəsizlik, gömrük yığımları və beynəlxalq daşınmalar çərçivəsində qoyulan qaydalar.

-Hər iki ölkənin XİN rəhbərlərinin görüşləri razılaşdırılıb. Görüş yaxın həftələrdə baş tutacaq və ən əsası - danışıqların yeganə predmeti yekun sülh sazişidir.

-Azad edilmiş ərazilərin minalardan təmizlənməsi istiqamətində qarşılıqlı razılaşmalar əldə edilib, eləcə də Qarabağ müharibələrində itkin düşmüş şəxslərin işlərinin aparılması ətrafında ümumi razılıq əldə olunub.

### Görüşə qədər masaya daşınmağa cəhd edilən qəbuledilməz erməni iddiaları

Sual edilə bilər ki, bəs bu görüşə qədər Paşinyan və Mirzoyan, həmçinin digər erməni siyasətçiləri və diplomatları danışıqlar masasına var gücləri ilə hansı təkliflərini sırımağa cəhdlər göstərirdilər? İlk olaraq "münaqişənin həll olunmaması və ya başa çatmaması", "yenidən status məsələsinin və ATƏT-in Minsk qrupunun dirildilməsi" və s.

Diqqət yetirsək görərik ki, 2020-ci ilin 44 günlük müharibəsinə qədər məhz erməni tərəfi ATƏT-in Minsk qrupu çərçivəsindəki bütün danışıqlarda "münaqişənin başa çatdığını" iddia edir, "dqr" adlı qondarma strukturun formalaşdırılması və artıq geriyə heç bir addımın atılmayacağı ətrafında fikirlər səsləndirilir, üstəlik isə danışıqların yalnız Azərbaycanın "yeni reallıqları qəbul etməsi" yönündə aparıldığı bəyan olunurdu. Bu məsələnin kulminasiya nöqtəsi isə baş nazir Nikol Paşinyanın Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə əlaqələndirilə bilər.

### Əvvəlcə "Qarabağ Azərbaycandır və nida", sonda isə "Nə oldu, Paşinyan?"

Təbii ki, Azərbaycan bununla qətiyyən barışmadı və Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida" bəyanatı ilə ilk qətiyyətli addım atıldı və bunun ardınca isə artıq dillərdə əzbərə çevrilmiş "Nə oldu, Paşinyan?" ibarəsi ilə bütün dünya tanış oldu. Artıq Azərbaycan Ermənistan qarşısında bu ölkənin rədd etməyə cürət edə bilməyəcəyi şərtləri, tələbləri qoyur, eləcə də yeni reallıqlarla barışmaqdan başqa çarəsinin olmadığını sübut edir!

Bəli, bu gün Ermənistandakı revanşçı qüvvələr - koçaryanlar, sarqsyanlar, saqatelyanlar, vanetsyanlar və başqaları hələ də Qarabağ ermənilərinin öz müqəddəratlarını həll etmə "hüquqları", "status", "yeni müharibə" və s. kimi sərsəmləmələrini irəli sürürlər, üstəlik onların sərsəmləmələrinin xaricdən, müxtəlif dairələrdən idarə olunması da kimsəyə sirr deyil. Amma bütün bunlar sadəcə zaman məsələsidir və az sonra bu kimi qara-qışqırıqlara da bir son qoyulacaq. Bakı isə belə "inadcıl zarafatlardan" əsla xoşlanmır və yetərincə təmkin nümayiş etdirir.

### Ermənistanla yalnız və yalnız 5 prinsip bazasında danışıqlar aparılır və eyni zamanda, sonuncu Brüssel görüşü də bunu ehtiva etməkdədir

Bu gün Azərbaycanın dövlət rəhbərliyi açıq-aydın nümayiş etdirir ki, ölkə yalnız konkret məsələlərin müzakirəsinə hazırdır, yerdə qalan "tələblər" isə yeni reallıqlar altında məhv edilib.

Bakı, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağdakı ermənilərin təhlükəsizlik, maliyyə, sahibkarlıq, iqtisadi, vətəndaş hüquqlarının tanınması, mədəni-maarifçilik və eləcə də dini cəhətdəki hüquqlarının təmin olunacağını vəd edir. Özü də bu kimi məsələlər heç də Ermənistanla deyil, bilavasitə Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilərlə müzakirə olunacaq. Ermənistanla isə yalnız və yalnız 5 prinsip bazasında danışıqlar aparılır və eyni zamanda, sonuncu Brüssel görüşü də bunu ehtiva etməkdədir.

Və ən əsası və sonuncusu - erməni siyasətçiləri və diplomatları nə zaman ki, öz sərsəm iddialarını, tələb və təkliflərini gündəm olaraq Azərbaycanla danışıqlar masasına sırımağa cəhd etməyəcəklərsə, bundan əl çəkəcəklərsə, bax onda danışıqlar məhsuldarlıqla başa çatacaq. Və məhz bundan sonra ikitərəfli razılaşmalara imzalar atılacaq. Ona görə də qarşı tərəf yeni reallıqları qəbul etməli, onunla barışmalıdır, əks halda əldə edilmiş razılaşmaların əbədi olaraq masada qalmasında Bakının nə səbri, nə də təmkini müddət baxımından uzadıla bilməz.

*Rövşən RƏSULOV*



## Elçin Quliyev Sərhədçi idmançıları qəbul edib



Azərbaycan sərhədçiləri milli və beynəlxalq statuslu mötəbər idman yarışlarında ölkəmizi ən yüksək səviyyədə təmsil edərək bu sahəyə öz töhfələrini verməkdə davam edirlər. SİA xəbər verir ki, may ayının 20-dən 22-ə dək "Sərhədçi" İdman Olimpiya Mərkəzində 200 idmançının iştirakı ilə 12 çəki dərəcəsində keçirilən kikboksinq üzrə respublika birinciliyində mayor Fuad Zeynalovun yetirmələri yüksək nailiyyətlər əldə ediblər.

Çempionatda 67 kq çəki dərəcəsində Qəşəm Məmmədov, 81 kq çəki dərəcəsində Elcan Alıkişiyev 1-ci yerə, 75 kq çəki dərəcəsində Elşad Şahbazov 2-ci yerə və Əkbər Əsədov isə 3-cü yerə layiq görülüblər. Çempionatın qalibləri 15-17 avqust 2022-ci ildə Türkiyə Respublikasında keçiriləcək İslam Oyunlarına lisenziyalar qazanıblar.

May ayının 23-də sərhədçi idmançılar Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən qəbul olunublar. Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə idmanın inkişafına olan ali diqqət və qayğısı nəticəsində Azərbaycan idmanının yüksək xətt üzrə inkişaf etməsi, milli idmançılarımızın olimpiya oyunlarında və digər mötəbər idman yarışlarında ölkəmizi ən yüksək səviyyədə təmsil etmələri, Azərbaycan sərhədçilərinin də bu sahəyə əhəmiyyətli töhfə vermələri qeyd olunub.

Sərhədçi idmançılar Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif olunmuşlar. İdmançılar adından çıxış edən mayor Fuad Zeynalov göstərilən ali diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə etmiş, yeni uğurları və qələbələri ilə göstərilən etimadı doğruldacaqlarına söz verib.

## Levan Osidze: "Ermənilər gürcü xalqına qarşı soyqırım törədiblər"




Gürcüstan politoloqu, professor Levan Osidze "Caliber.Az"-a müsahibəsində ermənilərin Qafqazdakı vəhşilikləri ilə bağlı maraqlı faktlar açıqlayıb. Müsahibədən bir hissəni oxucularımıza təqdim edirik.

Abxaziya müharibəsində ermənilərin rolu ilə bağlı suala cavabında politoloq bildirib ki, o müharibədə erməni "Baqramyan" batalyonu da iştirak edib: "Gürcülər Abxaziyadan qovulduqdan sonra ermənilər orada çoxluq təşkil etdilər. Gürcüləri öldürdülər, işgəncə verdilər, başlarını kəsdilər, başları ilə futbol oynadılar. Bunlar sadəcə sözlər deyil, bütün bu hadisələr sənədləşdirilmişdir. Bunu Gürcüstan Baş Prokurorluğunun 200 cildlik materialı sübut edir. Abxaziyada ermənilər gürcü xalqına qarşı soyqırım törədiblər.

Hazırda Gürcüstan hökumətində çoxlu erməni əsilli adamlar var. Mən bu məsələni bütün beynəlxalq forumlarda qaldırıram. Məsələn, ermənilər bu yaxınlarda Abxaziyada onlara mədəni muxtariyyət verilməsi məsələsini qaldırdılar, Qara dənizə çıxış əldə etmək üçün hər şeyə hazırdırlar".

*Tərcümə - Elçin Bayramlı*

ANALİTİK+AKTUAL

# Azərbaycan Qərbə deyil, oradakı qərəzli dairələrə qarşı öz sözünü deyir!

***Azərbaycanın artan nüfuzu və beynəlxalq aləmdəki söz sahibliyi, xüsusilə müstəqil siyasət aparması söz yox ki, ölkəmizə qarşı barmaqarası baxan, qərəzli mövqe sərgiləyən müxtəlif bəlli Qərb siyasi institutlarını, əsasən də erməni lobbisinin siyasi korrupsiyasına bulamış təşkilat və dairələri ciddi şəkildə narahat edir. Əbəs deyil ki, məhz həmin çevrələrə daxil olan Qərb qurumları əllərinə düşən hər imkanlarında - məsələn, məişət olaylarından tutmuş kiçik sosial məsələlərə qədər girəvəliklər edir, həmin məsələləri qəsdən şişirdərək-siyasiləşdirməklə bütövlükdə dövlətin siyasi xəttinə, nüfuzuna qarşı istifadə etməyə cəhdlər göstərirlər. Əlbəttə, belə cəhdlər əvvəllər də olduğu kimi, indi də baş verir, amma nəticəsi birmənalı olaraq "0"la ölçülür. Fakt budur ki, Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi, xalqın öz ölkə rəhbərinə, Liderinə olan sonsuz etimadı bənzər cəhdləri yerlə-yeksan edir.***



Biz bu reallığı AB-ın dövlət başçısı Cozef Baydenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlandığı təbrik məktubundakı fikirlərindən də nəticə olaraq çıxara bilərik

### "Beşinci kolon" Qərbə nəyi sırımağa cəhd edir?

Yeri gəlmişkən, daha bir fakt budur ki, erməni lobbisinin və anti-Azərbaycan dairələrin cavablarını yerindəcə və qətiyyətlə verən dövlətimizin bu kimi addımları məhz həmin dairələrlə sıx təmaslarda ona "beşinci kolon" təmsilçiləri tərəfindən bütövlüdə Qərbə qarşı yönəlmiş addımlar kimi sırınır. Amma bunun belə olmadığını az-çox siyasətdən anlayan istənilən şəxs yaxşı bilir. Yəni Azərbaycan Qərb ölkələrinə qarşı deyil, əksinə, Azərbaycanın əksər Qərb ölkələri ilə geniş və artan templə davam edən münasibətləri mövcuddur.

Biz bunu ABŞ-ın dövlət başçısı Cozef Baydenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Respublika Günü münasibəti ilə ünvanlandığı təbik məktubundakı fikirlərindən də nəticə olaraq çıxara bilərik. Misal üçün, istər beynəlxalq təhlükəsizlik, istərsə də Avropa və dünya bazarlarındakı təhlükəsizlik faktorunda əsas təminatçı rolunda çıxış edən Azərbaycan, eyni zamanda, sabitləşdirmə siyasəti baxımından da öz önəmli məqamını tutmaqdadır. Məhz bu gerçəkliklərdən çıxış edən Cozef Bayden 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa verilən üstün dəyərlərdən bəhs edib.

**Bu reallıqların məhz dünyanın aparıcı dövləti hesab edilən ABŞ-ın ölkə başçısı tərəfindən etiraf edilməsi Azərbaycanın Qərb dünyasındakı yerini və rolunu bir daha göstərir**

Azərbaycan müxtəlif dövrlərdə beynəlxalq terrorizmə qarşı çıxışlarda dünya ölkələri sırasında öncül yerlərdən birini tutmaqdadır. Belə ki, bəşəriyyətə təhlükə saçan terrorizmlə qlobal mübarizədə Azərbaycanın verdiyi töhfələri kifayət qədərdir və sözügedən məktubda həmin məqama da toxunularaq vurğulanıb ki, ABŞ ölkəmizin bu mübarizəsini təqdir edir, dəstəkləyir. Həmçinin, ABŞ-ın Azərbaycanın terrorizmlə mübarizəyə verdiyi yüksək dəyəri həm də belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, ölkəmizin regional sabitliyin, sülhün əldə olunması istiqamətindəki fəaliyyəti alqışlanır.

Təbii ki, bu reallıqların məhz dünyanın aparıcı dövləti hesab edilən ABŞ-ın ölkə başçısı tərəfindən etiraf edilməsi Azərbaycanın Qərb dünyasındakı yerini və rolunu bir daha göstərir və əlbəttə ki, Azərbaycan da Qərb dünyası ilə münasibətlərini sıx əməkdaşlıq çərçivəsində qurur, bu siyasətini uğurla davam etdirir.

Nəticədə isə belə bir fakt ortaya çıxır - ölkəmizə qarşı hər hansı qərəzli hücum dalğaları baş qaldırırsa, yersiz, əsassız qətnamələr çıxarılırsa ilk növbədə həmin tərəflərə qətiyyətli cavablar verilir. Bu isə sübut edir ki, Azərbaycan heç də Qərbə qarşı deyil, əksinə - Qərb ölkələrində Azərbaycana qarşı fəaliyyət göstərən və radikal mövqelərdən çıxış edən erməni lobbisi və onun təsir altına düşən siyasətçilərə qarşıdır və bu siyasət hər zaman öz sözünü deyib və deməkdədir.

*Rövşən RƏSULOV*

***P.S. Biz onu da unutmamalıyıq ki, hazırda yalnız ABŞ-da deyil, eləcə də Qərb ölkələrində elə siyasi cinahlar da var ki, onlar bütövlükdə Azərbaycanın apardığı uğurlu siyasət tandemini dəstəkləyir, prosesləri regionda və dünyada sülhün çağırışçısı kimi qiymətləndirir, qərəzli təşkilatlara, siyasi mərkəzlərə və dairələrə qarşı fikirlərini ifadə edirlər. Təbii ki, bu reallığın özü də belə nəticəyə gəlməyə zəmin yaradır ki, ədalətli yanaşma hər zaman qərəzdən, şər və böhtandan üstün dayanır, gec-tez ədalət öz sözünü qalib kimi deyir.***

# "Avropa İttifaqı Azərbaycanın reallıqlarını qəbul edir"

**"Mayın 22-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə növbəti görüşü regionda sülhün və əməkdaşlığın təmin olunması istiqamətində atılan daha bir addımdır. Azərbaycan Prezidenti İlham Əliyev regionda yeni reallıqların müəllifidir və postmünaqişə mərhələsinin ümumi geosiyasi mühitinin formalaşmasında əsas söz sahibidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.**



Onun sözlərinə görə, Azərbaycan regional əməkdaşlıq, sabitlik və inkişaf üçün vacib təşəbbüslər göstərir: "Azərbaycan Ermənistanla sülh sazişi imzalanmasının, sərhədlərin müəyyənləşdirilməsinin, regionda kommunikasiya xətlərinin, həmçinin Zəngəzur dəhlizinin açılmasının tərəfdarıdır. Bütün bunların fonunda Brüssel görüşü və onun nəticələri böyük önəm kəsb edir. Aprelin 6-da keçirilən görüşdə də faydalı müzakirələr aparılmışdı. Ermənistan əldə edilmiş razılaşmaları yerinə yetirilməlidir.

"Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan regionda sülh və əməkdaşlığın təmin olunmasının tərəfdarıdır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşündə dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edib və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğulayıb. Prezidentimiz həmçinin, bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, eləcə də sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha bəyan edib.

Üçtərəfli görüşdən sonra mətbuata açıqlama verən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bildirib ki, görüşdə tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması və nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib. Həmçinin, humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanıb. Eləcə də, Avropa İttifaqı tərəflərlə birlikdə hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcək. Əldə edilən razılaşmaya əsasən, yaxın günlərdə birgə sərhəd komissiyasının iclası keçiriləcək. Eyni zamanda, sülh sazişi ilə bağlı ortaya qoyulan yanaşma da təqdirəlayiqdir. Digər tərəfdən, Şarl Mişelin açıqlamasında "Dağlıq Qarabağ" ifadəsinin işlədilməyib, status məsələsi ümumiyyətlə olmayıb, yalnız Azərbaycanda yaşayan erməni əhalinin hüquqları barədə danışılıb ki, bunu da Azərbaycan özü həmişə deyib və onların təhlükəsizliyinə təminat verəcəyini bəyan edib. Bütün bunlar o deməkdir ki, Avropa İttifaqı Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir. Beləliklə, Avropa İttifaqının vasitəçilik səyləri müsbətdir və təqdir olunmalıdır. Bu format Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın təmin olunması istiqamətində vacib addımdır",-deyə Sevinc Fətəliyeva vurğulayıb".

*Arzu Qurbanlı*



# "Meymun çiçəyi" virusuna

## CƏMİYYƏTİN BAXIŞI

**İki ildən çoxdur ki, dünyamız həmçinin ölkəmiz koronavirusdan əziyyət çəkirdi. Bu virus nəticəsində minlərlə insan həyatını itirmiş, dünyanın yarıdan çoxu bu virusa yoluxub. Zaman keçdikcə virus mutasiyalara uğrayaraq zərərsizləşib və öz təhlükəsini itirib. İndi isə bir çox ölkələrdə "meymun çiçəyi" virusu yayılıb. Bu günə qədər virus İngiltərə, İspaniya, Portuqaliya, ABŞ, Kanada, İsveç, İtaliya, Fransa, Belçika, Almaniya və Avstraliyada müşahidə edilib. Bəs görəsən şəkər sakinləri "meymun çiçəyi" virusu ilə bağlı nə fikirləşirlər. SİA olaraq paytaxt sakinləri arasında sorğu keçirdik:**

**Şəhər sakini Sabirəxanım Əliyeva:** ""Meymun çiçəyi" virusu ilə



bağlı məlumatım yoxdur. Lakin viruslar təhlükəli bir şeydir. Ölkəmiz, dünyamız hələ təzəlikcə bir virusdan canını qutarıb. Təzə-təzə öz əvvəlki həyatımıza qayıtmışıq. İstəmərəm ki, yenidən virus olsun, qapanmalar olsun".

**Şəhər sakini Əlövsət Abbasov:** "Düzdür, artıq bir çox ölkələrdə bu virus yayılıb. Deyirlər ki, bu çiçək xəstəliyi kimidir. Amma yenə də virusun yoluxması istənilən deyil, təbii ki, təhlükəlidir. Deyirlər ki, hələ Azərbaycanda yayılmayıb. Heç yayılmasın da. Allah



dövlətimizi qorusun".

**Şəhər sakini Səidə Quliyeva:** "Əsrlər boyu xəstəliklər, viruslar olub. Amma biz hələ digər virusdan canımı-



zı təzə qurtarmışıq. İnşallah ki, bu virus bizim ölkəyə də yayılmaz. Allah hər kəsə şəfa versin".

**Şəhər sakini Xalid Quliyev:** "Belə virusun olduğundan xəbərim yoxdur. Amma düşünürəm ki, bu virus bizim öl-



kəyə yayılmaz. Yəqin ki, bununla bağlı ölkəmizdə qabaqlayıcı tədbirlər görərlər. Allah xalqımızı qorusun".

**Şəhər sakini Rza Abdullayev:** "Şükür olsun ki, koronavirusdan canımız qurtardı. Bu virus səbəbilə nə qədər insan həyatını itirib. Təbii ki, insanlar virusa qarşı özünü qorumalıdır.



Bu "meymun çiçəyi" virusu da inşallah ki, təhlükəli olmaz. Düşünürəm ki, tezliklə bu virusun qarşısı alınar. Allah bu virusa yoluxanlara şəfa versin".

**Şəhər sakini Nəzakət Əliqızı:** "Bu virusun yayılması təbii ki, pisdir. İnşallah bizim ölkəyə yayılmaz. Düşünürəm ki, dövlətimiz bununla bağlı ciddi tədbirlər görməlidir. Bu virusun ölkəmizdə yayılmasının qarşısını almaq lazımdır. İstəmirik ki, yenidən ölkəmizdə viruslar baş qaldırsın, qapanmalar olsun".

**Şəhər sakini Sahib Vəliyev:** ""Meymun çiçəyi" virusunun yayılması heç yaxşı hal deyil. İnsanlar yenidən əziyyət çəkməli olacaqlar. Kaş bu virusun qısa zamanda qarşısı alınar. Allahdan hər kəsə sağlamlıq arzu edirəm".

***Abutel İlhamqızı***

# Süni qiymət artımına qarşı mübarizə NECƏ APARILMALIDIR?

*İQTİSADÇI AYDINLIQ GƏTİRDİ*

"Aparılan monitorinqlər göstərdi ki, istehlak bazarında, hətta yerli istehsal olunan məhsullar da əvvəlki illərlə müqayisədə daha yüksək qiymətə təklif olunur". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar Bayramov bildirib.



Onun sözlərinə görə, burada xüsusən yerli kənd təsərrüfatı məsullarının yüksək qiymətə təklif olunması infilyasiya yaradıcı xarakter daşıyır: "Xüsusən də yerli məsulların optimallaşdırılması üçün süni qiymət artımına qarşı mübarizənin gücləndirilməsi çox vacibdir. Nəzərə alsaq ki, Nazirlər Kabineti tərəfindən anti-infilyasiya tədbirləri qəbul olunub. Həmin tədbirlərin əsas istiqamətlərindən biri də məhz süni qiymətlərə qarşı mübarizənin genişləndirilməsidir. Bütün hallarda təklif olunan məhsullar üzrə xərcdə ciddi fərqlər yoxdursa, qiymətlərin yüksək təklif olunması süni şəkildə qiymətlərin artırılması deməkdir. Təbii ki, əvvəlki dövrlərdə xarici ölkəkələrdən nisbətən ucuz kənd təssərrüfatı məsulları idxal olunurdu. Hazırda isə bir sıra aqrar ölkələr məsul ixracını dayandırdı. Bu da Azərbaycan bazarına da öz mənfi təsirlərini göstərdi. Xaricdən daha ucuz məsulların idxal olunması yerli məsulların qiymətinə də təsir göstərir və həmin məsulların qiymətində ucuzlaşma müşahidə olunur. Bütün hallarda məsulların optimallaşdırılması, daha uyğun qiymətə kənd təssərrüfatı məsulları satışının təşkil edilməsi üçün monitorinqlərin keçirilməsi və bu istiqamətdə xüsusən də süni qiymətlərə qarşı mübarizənin gücləndirilməsinə ehtiyac var".Səbinə Hüseynli

# Avropa Rusiya qazına alternativ tapa bilmir?



Bu arada Fransanın "Monde diplomatique" qəzetinin yazdığına görə, hazırda uzunmüddətli perspektivdə Rusiya təbii qazının Avropa ölkələrinə tədarükünü əvəz edə biləcək təchizatçı yoxdur. SİA bu barədə "rambler"ə istinad edir. Nəşrin yazdığına görə, Norveç, Hollandiya, Əlcəzair və Avropa İttifaqının digər ehtimal edilən təchizatçıları uzun müddət Avropanın artan tələbatını ödəyə bilmirlərş əslində onlar yalnız ehtiyat satıcılar kimi çıxış edə bilərlər.

Nəşr daha sonra yazır: "Avropalıların Moskvadan üz döndərmək istəyi neft-qaz sektorunda müəyyən bir nizama çevrilir ki, bunu az-çox açılmaz embarqonun tələb etdiyi kimi tez dəyişmək çətin olacaq".

Ölkədə davam edən vətəndaş müharibəsi səbəbindən Avropa Liviyadan qaz tədarükünə arxalana bilmir və Misir Moskva ilə münasibətlərdə ehtiyatlı davrandığına görə təchizatçı olmağı planlaşdırmır. Nigeriya və ya Anqola kimi digər istehsalçıların uzaq coğrafi yerləşməsi, onların imkanlarının müxtəlif dərəcədə köhnəlməsi, onların etibarlı əvəzedici olmasına imkan vermir.

***Ağasəf Babayev***

# Varujan Qeqamyan: "Ermənistan Qarabağın statusu uğrunda mübarizədən imtina edir"

**"Ermənistan nəhayət, Azərbaycandan kənarda Qarabağın statusu uğrunda mübarizədən imtina edir". SİA xəbər verir ki, bu fikri türkoloq Varujan Qeqamyan Brüsseldə Paşinyan-Mişel-Əliyev görüşündən sonra əldə olunan razılaşmaları təhlil etdikdən sonra deyib.**

Türkoloq vurğulayıb ki, mayın 22-də Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Şurasının sədri Şarl Mişel və Azərbaycan Prezidenti İlham Əliyev arasında üçtərəfli görüş keçirilib: "Danışıqlarda Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, onlar yalnız "Qarabağ bölgəsindəki etnik erməni əhalisinin hüquqları və təhlükəsizliyindən" danışırlar, bu da ən yaxşı halda ermənilərin Azərbaycanda milli statusunda yaşaması demək olacaq. Əslində isə ermənilərin Qarabağdan tamamilə qovulması deməkdir. Millətlərin öz müqəddəratını təyinetmə hüququ haqqında da bir kəlmə də yoxdur.

Üstəlik, Dağlıq Qarabağ Muxtar Vilayəti ideyasına əsaslanan "Dağlıq Qarabağ" (Dağlıq Qarabağ) termini artıq işlədilmir. Brüssel bəyanatında sadəcə olaraq Azərbaycanın inzibati-ərazi bölgüsü ideyasına əsaslanan "Qarabağ regionu"ndan bəhs edilir və ayrıca status nəzərdə tutmur. Azərbaycanla "sülh müqaviləsi" hazırlanır, onun əsas müddəası Azərbaycanın, o cümlədən Qarabağ da daxil olmaqla ərazi bütövlüyünün tanınmasıdır. Bu səbəbdən, yalnız bu razılaşmanın kontekstində "Artsax erməniləri"nin "hüquqlarının və təhlükəsizliyinin təmin olunmasından" danışılır, çünki Qarabağın başqa statusu olmayacaq.

Bəyanatda deyilir ki, tərəflər "Ermənistanın müxtəlif hissələri arasında Azərbaycan ərazisindən tranzit keçmə prinsipləri" barədə razılığa gəliblər. Bu qeyri-müəyyən ifadə əslində o deməkdir ki, Ermənistan Ermənistanın Tavuş və Ararat vilayətlərində, Ararat bölgəsini Vayots Dzor və Syunik (Tiqranaşen hissəsi) ilə birləşdirən əsas marşrutlarımızın keçdiyi "anklavlar" adlanan əraziləri Azərbaycana verəcək. eləcə də İran və



Gürcüstana gedən magistral yollarımız olan Tavuşun şimalı və cənubu, yeni ərazi Azərbaycana təhvil veriləcək, ondan sonra xüsusi icazə və nəzarət altında rayondan rayona gəzəcəyik. Eyni aqibəti yaşayan Gorus-Qafan yolunu xatırlamaq yerinə düşər".

# SOVET TƏHSİLİ

## müasir təhsildən nə ilə fərqlənir?

ARAŞDIRMA

**Təhsilin əsas və ən mühüm vəzifəsi mədəni dəyərlərin yeni nəsillərə ötürülməsi, elmi texnoloji inkişaflara sadiq qalacaq və mədəniyyətin inkişafını təmin edəcək yeni şəxsiyyətlər yetişdirməkdir. Təhsilin faydaları dedikdə fərdin daha çox gəliri, daha az cinayət səviyyəsi, demokratikləşmə və idarəetmədə iştirakı, fərdi sağlamlığın qorunması kimi vəziyyətlər nəzərdə tutulur. Bu xüsusiyyəti ilə təhsil təkcə fərd üçün deyil, həm də cəmiyyət üçün fayda təmin edir və ictimai rifahın inkişafına xidmət edir.**

Təhsil şəxsin indiki və gələcəyi ilə bağlı məhsuldarlığın və harmoniyanın artırılması ilə bağlı davranış və düşüncələri formalaşdırmaq, inkişaf etdirmək və təkmilləşdirmək səyi adlanır.

Təhsil ən mübahisəli sahələrdən biridir. Ölkəmizdə təhsil sistemimizin niyə iflic vəziyyətə düşməsindən danışmazdan əvvəl dünya təhsil sisteminin tarixi inkişafına nə-



zər salmaq lazımdır.

İlk məlum məktəb qədim Yunanıstanda bir filosof və alim tərəfindən kəşf edilmişdir və onun adını alaraq "Pifaqor" məktəbi adlanıb. Pifaqor bilik axtarışında dünyanı çox gəzərək Misir məbədlərindən birində təhsil alıb. Pifaqor çalışqan tələbə idi, biliyə cəlb olunurdu. Misirdə əldə etdiyi bütün biliklər, nəticədə Yunanıstana köçdü və Pifaqor məktəbini yaratdı. Sonra məktəblər bütün Yunanıstana yayıldı.

Ən qədim təhsil müəssisəsi Karaouin Müsəlman Universiteti hesab olunur. Sənədlərdə onun 859-cu ildə açıldığı qeyd olunur.

Rusiyada ilk məktəb 1700-cü ildə Moskvada Peter tərəfindən açılıb. Belə ki, Peter ilk dünyəvi Riyaziyyat və Naviqasiya Elmləri Məktəbini açdı.

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi.

Daha sonralar inkişaf elə bir səviyyəyə çatmışdı ki, X-XIII əsrlərdə Azərbaycanın



bir çox şəhərləri, o cümlədən Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Ərdəbil Şərq aləmində elm, təhsil, incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı.

Qeyd edək ki, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssis hazırlığı üç pilləlidir:

Birinci pillə - bakalavr;
İkinci pillə - magistratura;
Üçüncü pillə - doktorantura.

İnkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş ölkələr sırasına qalxmaq üçün təhsilə baxış dəyişməlidir. Bəs, konkret olaraq təhsildə nələr dəyişdirilməlidir?

İlk öncə təhsilin özünə, sonra isə təhsil verənə baxış dəyişməlidir. İnkişaf etmiş dövlətlər üçün təhsil vasitə, inkişaf etməkdə





olan ölkələr üçün təhsil məqsəddir. Təhsilə elə baxış sərgiləməliyik ki, sürətlə inkişaf edək. Gənclərə elə təhsil verməliyik ki, onlar gələcək həytlarında düzgün qərarlar qəbul edə bilsinlər və baş verən neqativ hadisələrin qurbanı olmasınlar.

Digər məqam isə müəllim zəhmətinin layiqincə qiymətləndirilməsidir. Sovet dövründə müəllimə xüsusi hörmət var idi. İndi isə vəziyyət biraz fərqlidir. Müəllim də uşaqları gəlir mənbəyi olaraq görməməlidir.

Bildiyimiz kimi günümüzdə təhsil bərbad səviyyədədir. Hal-hazırda repititor yanına getmədən universitetə qəbul olan şagirdlərin sayı isə yox dərəcəsindədir. Buradan da belə sual yaranır ki, axı əvvəllər repetiror yanına getmək deyilən bir durum yox idi. Bəs, o zamanlarda insanlar ali məktəbə necə qəbul olurdular? Üstəlik əvvəllər təhsil sahəsində belə yenilik və üstünlüklər də olmayıb. İndiki təhsil ocaqları hər cür texnologiya və yüksək standartlara cavab verən şəraitlə təmin olunub. Bəs, oxumağa əngəl nədir? Niyə indiki gənclərdə savad göstəricisi əvvəlkilərdən aşağıdır? Niyə müəllim yanına gedə bilməyən şagird universitetə qəbul ola bilmir? Sovet təhsili ilə indiki təhsil arasındakı fərq nədir? SİA mövzu ilə bağlı araşdırma apararaq deputat və ekspertlərin bu barədə fikirlərini öyrənib.

Araşdırmalar göstərir ki, sovet dövründə təhsildə böyük rəqabət olub. Sovet məktəb sisteminin ən mühüm üstünlüklərindən biri onun əlçatanlığı idi. Lakin sovet məktəbində bütün şagirdlərin bilik səviyyəsinin eyni olduğunu düşünmək də səhvdir. Təbii ki, ümumi proqram hamı tərəfindən mənimsənilmәlidir. Amma şagird müəyyən bir mövzu ilə maraqlanırdısa, ona əlavə olaraq öyrənmək üçün hər cür ödənişsiz imkan verilirdi. Məktəblərdə dərsdən sonra xüsusi dərnəklər olurdu.

Həmçinin, həm ixtisaslaşdırılmış siniflər, həm də ixtisaslaşdırılmış məktəblər var idi, burada uşaqlar müəyyən fənləri dərindən öyrənmək imkanı əldə edirdilər.

Keyfiyyətli təhsilin açarı müxtəlif fənlər üzrə əldə olunan biliklərin bir-biri ilə bağlı olması idi. Məsələn, şagirdlərin fizika dərslərində öyrəndikləri faktlar kimya və riyaziyyatın öyrənilməsində əldə edilən məlumatlarla səsləşir və əlaqələnirdi. Beləliklə, paralel olaraq yeni anlayışlar formalaşırdı. Bu da çox vacib amildir.

Bu gün bütün cəmiyyət həyəcan təbili çalır ki, məktəblilərin dərsə həvəsi yoxdur. Həmçinin, bir çox şagird də öz gələcəyi üçün məsuliyyət hiss etmir. Sovet dövründə bir neçə amilin qarşılıqlı təsiri nəticəsində



motivasiya yaratmaq mümkün idi. Fənlər üzrə qiymətlər əldə edilmiş biliyə uyğun gəlirdi. Həmçinin, sovet dövründə məktəbdə hamı üçün bərabər şərait yaradılmışdı. Şagirdin valideynlərinin sosial və maddi vəziyyəti məktəbdəki nəticələrə heç bir təsir göstərmirdi. Bütün uşaqlar bərabər şəraitdə idilər və onlar eyni proqram üzrə təhsil alırdılar. Məktəb biliyi də repetitor tutmadan universitetə daxil olmaq üçün kifayət idi. Sovet məktəbi şagirdin asudə vaxtını dəyərləndirir, hobbiləri ilə maraqlanırdı. Məcburi olan bölmələr, dərsdənkənar tədbirlər, demək olar ki, məqsədsiz əyləncəyə vaxt qoymur və müxtəlif sahələrdə əlavə təhsilə maraq yaradırdı. Pulsuz dərsdənkənar fəaliyyətlərin mövcud idi. Sovet məktəbində icbari proqramla yanaşı, arzu edənlər üçün mütəmadi olaraq seçmə fənlər keçirilirdi. Əlavə fənlər üzrə dərslər ödənişsiz idi və onları öyrənmək üçün vaxtı və marağı olan hər kəs üçün əlçatan idi.

Tələbələrə maddi dəstək - təqaüdlər ölkə üzrə orta əmək haqqının demək olar ki, üçdə birini təşkil edirdi. Əvvəllər müəllim olmaq şərəf sayılırdı.

**Təhsil eksperti Kamran Əsədov:** "Əfsuslar olsun ki, nəinki ölkəmizdə, post-sovet ölkələrinin əksərində də təhsil sisteminin bugünkü durumu acınacaqlı vəziyyətdədir. Bunun səbəbləri kifayət qədər dərindir. Mənim fikrimcə, ilk öncə bu vəziyyət siyasi faktorlarla bağlı olub, SSRİ adlanan nəhəng bir imperiyanın müxtəlif müstəqil dövlətlərə parçalanması və nəticədə mövcud vahid sovet təhsil sisteminin də süquta yetməsi ilə izah olunmalıdır. Belə ki, sovet rejiminin bütün digər qüsurlarına baxmayaraq, onun elm-təhsil sisteminin kifayət qədər güclü olmasına, yüksək səviyyəli elm və pedaqoji kadrların mövcudluğuna da şəkk yox idi. Lakin bu da bir həqiqətdir ki, ölkəmizdə təhsil sisteminin bugünkü böhran vəziyyətinin sirlərini cəmiyyətimizin yalnız mövcud zəminində yox, həm də onun dünənki, əsasən keçən əsrin 70-80-ci illərdəki real qüsurlu məqamında axtarmaq gərəkdir. Danılmaz faktdır ki, orta məktəb şagirdləri dərsdən sonra hazırlıq kurslarına, repititorlara müraciət etməsələr yaxşı nəticə əldə etmələri inandırıcı olmaz.

Əslində təhsildə kütləvi şəkildə repititorluq modeli son illərdə ortaya çıxıb. Əvvəl şagirdlər orta məktəbdə aldıqları biliklərin hesabına ali məktəblərə daxil olurdular. Repetitor yanına gedən şagird daha ciddi nəzarətə götürülür. Şagirdin vaxtıvaxtında müəllimin yanına gedib-gəlməsi, müəllimə xüsusi ianə xərclənməsi və bütün bunların valideyn tərəfindən daha ciddi nəzarətə götürülməsi yaxşı nəticə verir. Orta məktəbə gedən şagirdi isə valideyn güclü nəzarətdə saxlamır. Həmin şagirdlər də hazırlığa gedə bilmədikləri, digər abituriyentlərdən "geri qaldıqları" üçün ruhdan düşürlər. Təcrübə göstərir ki, ali məktəblərə qəbul imtahanlarında heç bir müəllim yanına getməyən şagirdlər də yaxşı nəticələr əldə edirlər. Bu şərtlə ki, şagirdə həm valideyn ciddi nəzarət eləsin, həm məktəb dərsin keyfiyyətinə fikir versin.

Son vaxtlar abituriyentlərin repititorlara az müraciət etməsinin əsas səbəbi onların xidmət haqlarının yüksək olmasıdır. Yəni illərlə bu sahədə məşğul olan təcrübəli repititorlar daha yüksək qiymətə xidmət haqqı təklif edirlər.

Valideynlər isə daha uzun xidmət haqqına meyl edirlər. Yəni valideyin iki repitirora 200 manat verməkdənsə, 5 fənnə göndərir kursa, tədris mərkəzinə övladını və iki repetitora verdiyi xidmət haqqını ödəyir.

Bundan başqa, son dövrlədə qəbul imtahanlarında baş verən dəyişiklikləri repititorlar yaxşı mənimsəmirlər, onlar elektron ərizə qəbulu və bu kimi digər yenilikləri bilmədikləri üçün valideynlər əlavə yerlərə xidmət üçün müracət etməli olurlar.

Bundan başqa, bildiyimiz kimi şagirdlər seçdiyi qrup üzrə onlara lazım olan fənlərə daha çox zaman ayırır və repititor yanına da yalnız bu fənlər üzrə gedir. Bunun nəticəsində də şagirdlər elmi biliklərə birtəfəli qaydada yiyələnir. Beləliklə, şagirdlərin dünyagörüşləri zəif inkişaf edir. Bu da gələcəkdə onların iş fəaliyyətində problemlər yarada bilər.

Hesab edirəm ki, repititor fəaliyyətinin leqallaşması, rəsmiləşdirilməsi üçün bu sahəyə lisenziya sisteminin tətbiq edilməsi daha effektiv olardı. Çünki bu gün ixtisası uyğun olmayan şəxslər də repetitorluq xidməti göstərirlər. Ona görə də Təhsil Nazirliyi, Dövlət İmtahan Mərkəzi , vergilər Nazirliyi və Sosial Müdafiyə Nazirliyinin mövcud olacağı bir komissiya yaradıb. Orada təhsil xidmətləri göstərənlər yoxlanılmalı və fəaliyyət icazəsi verilməlidir.



Bu gün taksi fəaliyyəti göstərmək üçün uyğunluq setifkatı verilir. Yalnız sənədləri qaydasında olanlara bu icazə verilir. Düşünürəm ki, bunu repetitorluq, hazırlıq kursları sisteminə də tətbiq etmək lazımdır.

Ümumilikdə, repititorluq ta qədim zamanlardan mövcud olub, maddi cəhətdən az-çox imkanlı insanların övladları üçün nəzərdə tutulan xüsusi təlim-tədris vasitəsi kimi yüksək səviyyəli elitaların yetişdirilməsində mühüm rol oynayıb. Çox təəssüflər olsun ki, hazırda müəyyən istisna hallardan başqa, bu qədim təlim-tədris vasitəsi bu gün öz tarixi mahiyyətini itirərək, bir qisim işsiz və ya cüzi əmək haqqı alan alim və müəllimlərimizin əsas ruzi mənbəyinə çevrilib. Repititorluğu açıq-aşkar biznesə çevirmə halları da istisna deyil. Ancaq bu gün repetitorların bəlkə də əksəriyyətini bilavasitə şagirdlərin öz orta məktəb müəllimləri təşkil edir. Müəllim-şagird münasibətlərində yaranan bazar ticarətinin hədsiz dərəcədə qınanmalı fakt olduğunu qəbul etsək də, digər tərəfdən, cüzi maaş alan müəllimlərimizin buna məcburən sövq edildiyini də qəbul etməyə borcluyuq. Bununla belə, istənilən halda repititorluq - təhsilin səviyyəsini aşağı salmaz, yalnız yüksəldə bilər və bayaq qeyd etdiyim kimi, əgər bu tədris vasitəsi də olmasaydı, bu gün təhsilimiz tamamilə iflasa uğrayardı".

**Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu:** "Sovet təhsilindən götürülesi çox örnək var. Biz müasir dövrdə hansı təhsil modelini tətbiq edirik hələ də



məlum deyil. Yenə də sovet dövründə olduğu kimi tələbələr imtahan verirlər. Sadəcə olaraq imtahanın forması dəyişib. Amma hələ də uşaqları gələcəkdə lazım olmayacaq suallarla imtahan edirlər.

Eyni zamanda, imtahanlarda çox çətin və anlaşılmaz suallar qoyurlar. Mənasız bir şəkildə riyaziyyatçının tarix, tarixçinin ingilis dili biliyini müəyyənləşdirilməyə çalışırlar. Ümumiyyətlə, hər kəs universitet oxumalıdırmı? Universitet nəyə gərəkdir? Bəs peşə məktəbləri və ya texnikumlar nə işə yarayır?

Hazırda ölkəmizdə təhsil sistemində xaotik bir vəziyyət hökm sürür. Əslində heç sistem deyə bir şey də yoxdur. Təhsil Nazirliyinin dərslikləri əsasında təhsil alan şagirdlərdən Dövlət İmtahan Mərkəzi imtahan götürür. Ümumilikdə iki qurumun olmağı çox absurd bir yanaşmadır. 700 bal toplayan tələbələrin heç Azərbaycanda nə baş verir xəbərləri yoxdur. Onların vaxtilə öyrəndikləri həyatlarında heç bir əhəmiyyət kəsb etmir. Çünki öyrəndiklərini xaotik şəkildə əzbərləyiblər.

Bizim ölkədə uşaqların niyə hər bir addımda imtahan verdiklərini başa düşə bilmirəm. Uşaqlar I sinfə, V sinfə, IX sinfə, universitetə, magistraturaya qəbul olmaq üçün daim imtahan verirlər. Axı bunda məqsəd nədir? Bütün bunlar sadəcə biyabırçılıqdır".

**Psixoloq Leyla Əli:** "Hər bir dövrün özünəməxsus təhsil sistemi formalaşır. Azərbaycanda təhsil sistemi dünya standartlarına uyğunlaşdırılmış şəkildə formalaşdırılır və inkişaş meyilləri görülür.

Azərbaycanda təhsilin səviyyəsinin yüksək və ya aşağı, yaxşı və ya pis olmasını bir mənalı şəkildə söyləmək doğru və məntiqli deyil. Çünki təhsildə olan islahatlar ən azı özünü 10 il sonra biruzə verməyə başlayır.

Müasir dövrümüzdə təhsil sahəsində, ümumiyyətlə təhsil sistemində dəyikənliyi və böyük transfarmasiyaları nəzərə alsaq konkret bir fikir söyləmək çox çətindir. Bu-



na baxmayaraq akademik təhsil anlayışı elmə dərindən yiyələnmə xüsusiyyəti bir başa təhsil alanların özünə bağlıdır. Bu gün orta məktəb ali məktəb və yaxud müxtəlif elmi dərəcələr almaq hələ intelektual, bilikli, təhsilli insanın formalaşmasını ifadə etmir.

Digər tərəfdən isə dördüncü sənaye inqilabını yaşadığımız dövrdə təhsilə münasibət fərqli yanaşma tələb edir. Biz bu gün "3 L" hərfi üzərində düşünürük: "Long Life Learning". Yəni, insan bütün ömrü boyu öyrənməyə və təhsil almağa köklənməlidir. Bu isə gələcəyin çağırışıdır. Əgər biz baza təhsili alamda təhsilə icbari və öhdəlik kimi yanaşırıqsa, zaman keçdikcə bizə təhsil almaq məcburiyyəti bitdikdən sonra insan təhsil almağa özü meyilli olmalıdır.Yəni bu yanaşmanı özü özündə formalaşdırmalıdır".

*Ayşən Vəli*

## Dövlət siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır

Azərbaycanda şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yüksək dövlət qayğısı, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və bərpa işlərinin aparılması ilə ölkəmiz yeni mərhələyə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı, onların azad olunmuş torpaqlarımıza etdikləri səfərlər çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin həlli təşkil edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir.

Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda vuruşan hərbçilərimizə və onların ailələrinə diqqət və qayğı göstərilməsi diqqətdədir. Ölkə Prezidentinin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədi ilə "YAŞAT" Fondu yaradılıb. Eləcə də, "Qarabağ Dirçəliş" Fondu ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və bərpa işlərinin aparılmasına töhfələr verir. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka



İlham Əliyev: "Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır"

kreditləri, torpaq sahələri, onlara müavinət və pensiya ilə yanaşı, Prezident təqaüdü verilir.

Postmüharibə dövründə Prezident İlham Əliyevin göstərişi ilə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Bizdə bu sahədə tətbiq olunan prinsiplərin öz unikallığı ilə seçildiyini bildirən dövlət başçısı bildirib ki, bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin: "Ermənistan da itkilər verib və İkinci Qarabağ müharibəsində bizdən haradasa 2-3 dəfə çox itki verib. Amma baxın görün, orada müharibədə ölənlərin ailəsinin birinə bir mənzil verilir? Yox. Avtomobil verilir? Yox. Bir daxma da verilmir. Yəni, bu onu göstərir ki, bizim bu sahədəki siyasət, sözün əsl mənasında, milli siyasətdir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır".

Şəhid ailələrinə və əlillərə keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Dövlət başçısının vurğuladığı kimi, "Həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir. Çünki Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik."

*Nəzakət ƏLƏDDİNQIZI*

## "Bu gün Azərbaycan-ABŞ münasibətləri yüksək səviyyədədir"



"Bu gün Azərbaycan-ABŞ münasibətləri yüksək səviyyədədir. ABŞ Prezidenti Co Baydenin Azərbaycan Prezident İlham Əliyevə ünvanladığı məktub bunu bir daha təsdiq edir". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, məktubda bir çox məqamlara toxunulub: "Bu məqamlardan biri də Azərbaycanın bütövlükdə terrorizmə qarşı qlobal mübarizəyə, təhlükəsizliyə verdiyi töhfələrdir. Həmçinin məktubda Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlar xüsusi olaraq vurğulanılır. Hesab edirəm ki, bu çox önəmli və vacib məsələdir. Eyni zamanda Azərbaycanın qlobal və təhlükəsizliklə bağlı məsələlərdəki dəstəyi xüsusilə vurğulanır. Digət bir məsələ isə Amerikanın Azərbaycan və Ermənistan münasibətlərinin tənzimlənməsi istiqamətindəki addımlar və Amerikanın bu prosesdəki marağı qeyd olunub. Bu gün Azərbaycan-ABŞ münasibətləri inkişaf edir. Azərbaycan da bu münasibətlərə önəm verir. Məktubda da qeyd olunduğu kimi bu il Azərbaycan-ABŞ münasibətlərinin 30 illiyi tamam olur. Bu gün qarşıya qoyulan əsas hədəf və məqsədlərdən biri də odur ki, Azərbaycan-ABŞ münasibətləri daha da inkişaf etsin".

*Arzu Qurbanlı*

## Səhiyyə Nazirliyi "meymun çiçəyi" ilə bağlı açıqlama yayıb




Azərbaycan ərazisində bugünkü tarixədək "meymun çiçəyi" xəstəliyinə şübhəli hallar qeydə alınmayıb. Bu barədə SİA-ya Səhiyyə Nazirliyindən məlumat verilib. Qeyd edilib ki, bu istiqamətdə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən ciddi epidemioloji nəzarət aparılır. "Hazırda Ümumdünya Səhiyyə Təşkilatı beynəlxalq səyahətlərlə bağlı hər hansı əlavə tədbirlərin həyata keçirilməsini tövsiyə etmir. Meymun çiçəyi çox nadir rast gəlinən zoonoz virus xəstəliyidir, yəni bu xəstəlik insana əsasən heyvandan keçir. İnsan orqanizminə zədələnmiş dəri, tənəffüs yolları, gözlər, burun və ağzın selikli qişasından daxil ola bilər. İnsandan insana bu xəstəlik yalnız uzunmüddətli və sıx təmas zamanı ötürülə bilər.

Xəstəliyin əsas əlamətləri üz nahiyəsindən başlayan və qısa müddət ərzində bütün bədənə yayılan qeyri-adi irinli səpgilərdir. Xəstəliyə xas olan kliniki əlamətlər əmələ gəlməyənə qədər xəstə və ya onunla təmasda olan şəxslər yoluxucu hesab edilmir" - açıqlamada deyilir.

# ICESCO Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir

**Dünya təşkilatları ilə müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESKO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESKO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESKO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etməsi bu əlaqələrin davamlı olmasına əsaslanır. Dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu bildirib. Bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq quruculuq işləri tezliklə cənnəti xatırladacaq bir məkanın qurulmasından xəbər verir. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət kimi bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirir. Azərbaycan dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edəcək. Erməni vandalları xalqımıza məxsus olan bütün abidələr dağıdıb, yerlə-yeksan ediblər. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilərin əxlaqsızlıq, mənəviyyatsızlığının məntiqi olaraq Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla simasız, rəzil olduqlarını göstərmiş oldular. Azad edilmiş torpaqlara bu gün gələn xarici qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. ICESCO-nun Baş katibi də Cənab Prezidentin qeyd etdiyi kimi azad edilmiş bir çox ərazilərdə olub.

Bildiyimiz kimi, Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. Erməni vandallığını, vəhşiliyini bütün dünya görməlidir, necə ki, 44 günlük Vətən müharibəsində dünya bunu bir daha görmüş oldu. Erməni vandalizmini və barbarlığını, erməni faşist ideologiyasını gözləri ilə görmüş oldu. Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir.Artıq işğaldan azad olunan ərazilərimizdə dini abidələrin bərpasına start verilib. Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb.

Prezident İlham Əliyev Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ICESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirib. Dövlətimizin başçısı qeyd edib ki, biz istərdik UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin təəssüflər olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev qeyd edib ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ICESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər. Dövlətimizin başçısı Bakıda ICESCO-nun Regional Ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd edib və bu təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirib. Əlbəttə ki, Azərbaycana, xüsusilə də işğaldan azad olunan ərazilərimizə dost ölkələrin nümayədələrinin səfəri çərçivəsində həyata keçirilən abadlıq və quruculuq işləri ilə tanışlıq onlarda xoş təəssüratlar yaradır. Salim bin Məhəmməd əl-Malik budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olub. Bu yerlərin çox gözəl olduğunu vurğulayan ICESCO-nun Baş direktoru artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini bildirib. Ermənistan əməllərinin təzahürü olan bu vandallıq bir daha təsdiqləyir ki, bütün bunlar Azərbaycana qarşı mədəni soyqırımıdır. Artıq Azərbaycan öz torpaqlarına sahibdir və işğaldan azad olunan dağıdılmış ərazilərimiz, o cümlədən dinitarixi abidələr yenidən qurulur, təmir və bərpa olunur.

***Zümrüd BAYRAMOVA***

# Moskva təşəbbüsün Brüsselə keçməsinə niyə imkan verdi?



"Brüssel yenə də Ermənistan-Azərbaycan münaqişəsinin həlli perspektivlərinin müzakirə edildiyi əsas məkana çevrildi. Mayın 22-də vahid Avropanın paytaxtında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqların növbəti raundu olub. Bu görüşün nəticələrini necə qiymətləndirmək olar? Münaqişələrin həlli ilə mötədillik prosesində Aİ-nin ön plana çıxdığını söyləmək olarmı?" - deyə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Avro-Atlantika Təhlükəsizliyi Mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov "Bunin & Co" teleqram kanalı üçün şərhində belə deyib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, ekspert danışıqların yüksək tempini xüsusi olaraq qeyd edib.

"Eyni zamanda, qeyd etmək lazımdır ki, hər üç danışıqlar raundları təkcə ümumi siyasi cəhətdən düzgün ifadələrlə deyil, həm də konkret razılıqların əldə olunması ilə başa çatıb". Şarl Mişelin təşəbbüsü ilə mayın 22-də keçirilən danışıqları "səmimi" və "məhsuldar" adlandırdığını qeyd edən Markedonov substantiv məqamları daha vacib adlandırıb: "Avropa Şurası rəhbərinin mətbuat bəyanatında deyilir ki, yaxın günlərdə dövlətlərarası sərhəddə sərhəd komissiyalarının ilk birgə iclası keçiriləcək, sərhədin delimitasiyası ilə bağlı bütün məsələlər və sabitliyin ən yaxşı şəkildə necə təmin ediləcəyi ilə bağlı məsələlər müzakirə olunacaq. Demarkasiya məsələləri ilə yanaşı, regionun sosial-iqtisadi inkişafı, tam kommunikasiya infrastrukturunun bərpası və sülh sazişinin hazırlanması kimi mühüm bloklar da nəzərdən keçirilib. Problemə, gördüyümüz kimi, sistemli şəkildə baxılır".

Ekspert qeyd edib ki, Aİ-nin sülh prosesinin əsas moderatoru rolunu önə çəkməyə çalışdığını görməmək mümkün deyil: "Əgər 2020-2021-ci illərdə. Moskva danışıqlar prosesində bütün digər oyunçuları qabaqlayırdı. Və onun himayəsi altında üçtərəfli görüşlər mənalı ideyalarla başa çatırdı. Bütün bunlar Rusiya tərəfini müsbət mənada fərqləndirdi. Bu gün Aİ daha çox sülh işinin təşkilatçısı və ilhamvericisi kimi xatırlanır".

Ukraynadakı vəziyyət fonunda Moskvanın Qafqaz regionuna marağını itirdiyi təəssüratından danışan Markedonov bu fikrin səthi olduğunu izah edib: "Əslində, postsovet məkanının cənub hissəsi hələ də Rusiya Federasiyasının maraqları üçün vacibdir. Amma məntiqli təşəbbüslərə ehtiyac var. Nəhayət, həm dövlət sərhədində, həm də birbaşa Qarabağda insidentlərin minimuma endirilməsi üçün məhz Moskva çox işlər görüb. Məhz Rusiya həm demarkasiya danışıqları, həm də sülh sazişi üçün güclü zəmin yaradıb. Lakin Mişelin mətbuat üçün budəfəki bəyanatında Rusiya yoxdur. Moskvaya ünvanlanan müsbət qiymət və ya təşəkkür yoxdur. Və indiki kontekstdə çox güman ki, ola bilməz. Avropa İttifaqının rəhbəri Brüsselin və ümumən kollektiv Qərbin Rusiyaya münasibətdə sərt siyasətinin tərəfdarlarından biridir".

Politoloq qeyd edir ki, son vaxtlara qədər Qarabağ istiqamətində uğurla qarşılıqlı fəaliyyət göstərən Rusiya Federasiyası, Aİ və ABŞ bu gün Avrasiyanın bu hissəsində rəqibə çevrilib: "Bəs niyə Moskva Brüsselin irəli getməsinə, təşəbbüsü ələ almasına imkan verir kimi görünür? İrəvanla Bakı arasında ziddiyyətlər hələ də böyük olduğundan və münaqişəli cəmiyyətlər daxilində, xüsusən də Ermənistanda münaqişənin sülh yolu ilə həllinə yanaşmalardakı uyğunsuzluqlar əlavə olunduğu üçün hər şeyin hələ də yekun "böyük razılığa" gəlməyəcəyi gözləntiləri var Bəlkə də bu məntiq də səbəbsiz deyil. Halbuki, bildiyiniz kimi, "müqəddəs yer heç vaxt boş qalmaz". Onu vaxtından əvvəl doldurmağın qayğısına qalmaq daha yaxşı olardı".

## "Brüssel müzakirələrində Ermənistan üçün yeni öhdəliklər müəyyənləşdi"



"Avropa İttifaqı Şurası Prezidenti Şarl Mişel, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə baş tutan üçüncü üçtərəfli görüşün 5 saat davam etməsi müzakirələrdə bütün məsələlərin nəzərdən keçirildiyini göstərir. Şarl Mişelin görüşdən sonra mətbuata verdiyi açıqlamasından aydın olur ki, əslində budəfəki müzakirələrdə uğurlu nəticələr əldə olunub. İlk növbədə onu qeyd etməliyik ki, görüşdə və səslənən bəyanatda "Dağlıq Qarabağ" ifadəsi yenə işlədilmədi. Eyni zamanda status məsələsi, ümumiyyətlə, müzakirə olunmayıb, yalnız Azərbaycanda yaşayan erməni əhalinin hüquqları barədə danışılıb ki, rəsmi Bakı hər zaman onların təhlükəsizliyinə təminat verəcəyini bəyan edib. Yeri gəlmişkən, erməni ekspertlər də etnik ermənilərin təhlükəsizliyini Azərbaycanın tərkibində yaşayaraq təmin olunması kimi şərh edirlər". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.

Onun sözlərinə görə, görüşdə diqqət çəkən məqamlardan biri də humanitar sahədə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi və itkin düşmüş şəxslərin taleyinin müzakirə olunmasıdır: "Bu, Azərbaycan üçün prinsipial məsələdir və rəsmi Bakı bütün platformalarda Yerevana bu mövzuda öz öhdəliklərini xatırladır.

Brüsseldə yaxın zamanlarda Azərbaycan-Ermənistan sərhədində Sərhəd Komissiyalarının ilk birgə iclasının keçirilməsinə dair də razılıq əldə olundu. Belə ki, komissiya sərhədlərin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı məsələlərlə məşğul olacaq. Əslində tərəflər aprel ayının 6-da baş tutan görüşdə aprelin sonunda sərhəd məsələləri ilə bağlı görüşün keçirilməsinə dair razılığa gəlmişdilər. Lakin Ermənistan etimad mühitini pozaraq, aprelin sonunda və mayın əvvəlində baş tutmalı olan mümkün görüşlərdən imtina etdi. Kommunikasiyaların açılması istiqamətində işin davam etdirilməsi, o cümlədən Zəngəzur dəhlizinin reallaşdırılması, beynəlxalq daşımaların tənzimlənməsi və digər məsələlər barədə də razılığa gəlinməsi sülhlə bağlı ümidləri artırır. Eyni zamanda sərhəd idarəçiliyi, təhlükəsizlik, torpaq haqları, həmçinin beynəlxalq daşımalar kontekstində gömrük prinsipləri barədə də razılıq var. Bütövlükdə Brüssel görüşü Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsi üzrə müzakirələrin irəli aparılması baxımından müsbət qiymətləndirilməlidir.

Aİ Şurası İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyul-avqust aylarına qədər yenə eyni formatda görüş olacağını da bildirdi. Bu o deməkdir ki, Ermənistan növbəti müzakirələrə qədər öhdəliklərini yerinə yetirməlidir. Burada təbii ki, Avropa İttifaqı da vasitəçi kimi öz məsuliyyətini anlayaraq, Ermənistanın etimad mühitini pozmasına mane olmalıdır".

***Arzu Qurbanlı***

# “Brüsseldə baş tutan görüş müsbət nəticələr verə bilər”

“Mayın 22-də Brüsseldə münaqişə tərəfləri arasında baş tutmuş görüş Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin təşəbbüsü və vasitəçiliyi ilə keçirilən sayca 3-cü görüş olmuşdur. Azərbaycanın dövlət başçısı İlham Əliyev münaqişə tərəfləri arasında münasibətlərdəki problemlərin həlli və perspektivdə sülh müqaviləsinin imzalanmasına təminat verə biləcək bu görüşə də özünün 5 mühüm təklifi ilə qatılmışdı və təkliflər dövlətlərin bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyacağı, münaqişə nəticəsində qapanmış nəqliyyat dəhlizlərinin açılması, nəqliyyat kommunikasiya xətlərinin bərpa olunması, dövlət sərhədlərinin delimitasiyası və digər məsələləri özündə ehtiva edirdi”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə, Brüsseldə keçirilmiş 2-ci görüşdən sonra Ermənistanın baş naziri Paşinyan keçən ay Rusiya prezidenti Vladimir Putinlə görüşü zamanı münasibətlərin normallaşmasına dair özünün 6 məlum təklifi ilə çıxış etmişdir: ”Brüsseldə keçirilmiş görüşdən sonra Paşinyanın Qarabağın son statusu ilə bağlı məsələni təkliflər paketinə daxil etməsi danışıqlarda tərəflər arasında konstruktiv əməkdaşlığa müəyyən mənada təsir edir. Bu, ilk növbədə, Ermənistanda hazırda mövcud durum, habelə Rusiya və Qərb arasında bölgədə nüfuz dairəsi uğrunda mübarizənin danışıqlara təsiri rakursunda diqqəti cəlb edir. Paşinyanın danışıqların ilkin raundundan fərqli olaraq yenidən Qarabağın statusu, Qarabağ ermənilərinin təhlükəsizliyi ilə bağlı məsələləri qabartması ona Ermənistan müxalifəti, çağırışına cavab olaraq onun istefası tələbi ilə küçələrə çıxmış on minlərlə ermənilərin etiraz aksiyaları ilə əlaqədardır”.

E.Manafov onu da bildirdi ki, Paşinyanı Qarabağ ermənilərinin gələcək müqəddəratı ilə bağlı məsələlərə aydınlıq gətirmədən Azərbaycanla sülh danışıqlarına getməkdə ittiham edən müxalifət onun erməni xalqının maraqlarına xəyanətdə suçlayır: ”Paşinyanın siyasi iradə və qətiyyət nümayiş etdirməməsi müxalifət və onun tərəfdarlarını daha fəal və tələbkar olmağa sövq edir, lakin Ermənistandakı mövcud siyasi durumun özəlliyi ondan ibarətdir ki, hakimiyyət özünə tam güvənmədiyindən müxalifətin üzərinə gedib onu sıxışdıra bilmir, müxalifət isə Paşinyanı devirə biləcək ciddi sosial dəstəyə və geosiyasi güvənə malik olmadığından daha radikal addımlara gedə bilmir, nəticə etibarı ilə siyasi anlamdakı bu pat vəziyyəti Azərbaycanla aparılan danışıqların gedişatına da təsir edir. Bununla belə tərəflər bu ilin iyulun sonu və ya avqustun əvvəlində yenidən Brüsseldə görüşüb müzakirələri davam etdirmək barədə razılığa gəliblər. Tərəflər dövlət sərhədlərinin delimitasiyası habelə bölgədə nəqliyyat, loqistika sahəsindəki problemlərin həlli ilə bağlı məsələlərə nail olmaq uçun hökumətlərarası komissiyaları də təşkil ediblər və bu komissiyalar arasında təmasların davam etdirilməsi ilə bağlı razılıqlar Brüssel görüşünün əldə etdiyi nəticələrə aiddir. Bütövlükdə ekspertlər Brüsseldə baş tutmuş bu görüşdə də münaqişə tərəfləri arasında mövcud problemləri həll edəcək hər hansı ciddi sənədlərin imzalanacağını şərh etdiyimiz məlum amillərlə bağlı istisna edirdilər”.

**Gülyana**

# “Brüsseldə mövqeyimizin dəstəklənməsi Azərbaycanın nüfuzunun göstəricisidir”



“Tarixi Zəfərimizin reallıqları fonunda son bir ildən artıq dövrün əsas tələbi bölgədə etimad mühitinin yaradılması, dayanıqlı sülhə və təhlükəsizliyə nail olmaq üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat özündə bütün bu məsələləri ehtiva edir. Bu baxımdan keçirilən bütün görüşlərdə dövlət başçısı İlham Əliyev 10 noyabr Bəyanatının müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini qeyd edir. İkinci Qarabağ müharibəsinin başa çatmasından bugünədək Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsinin imzalanmasında vasitəçiliyin yerinə yetirilməsi məqsədilə 5 görüş keçirilib. Bu görüşlərin ikisi Rusiyada, üçü isə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Belçikanın paytaxtı Brüsseldə baş tutub.

Azərbaycan 44 günlük Vətən müharibəsinin davam etdiyi dövrdə də Ermənistana sülh təklifini edərək hansı şərtlər daxilində müharibənin dayandırılmasının mümkünlüyünü bildirmişdi. Amma işğalçı dövlət havadarlarının dəstəyinə arxalanaraq bu təklifi arxa plana keçirdi. Nəticədə bir addım da belə mövqeyindən geri çəkilməyən Azərbaycan dövləti döyüş meydanında mənfur düşmənə tarixdə heç zaman unutmayacağı dərsi verdi. Düşünmək olardı ki, Ermənistan bu dərsdən nəticə çıxarıb kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarının icrasında fəallıq nümayiş etdirər, sülh müqaviləsini qısa zamanda imzalayaraq, bölgədə davamlı sülhün və təhlükəsizliyin yaradılması fonunda yeni əməkdaşlıq formatlarının iştirakçısı olar və bununla da iqtisadi böhrandan qurtulmaq imkanı qazanar. Amma gözlənilənlərin əksinə olaraq Ermənistanın hələ də tərəddüd etməsi diqqətdən kənarda qalmır. Baxmayaraq ki, 10 noyabr Bəyanatının, eyni zamanda, Brüssel görüşlərində əldə olunan razılaşmaların Ermənistanın qarşısında qoyduğu tələblər postmünaqişə dövrünün reallıqlarının qəbuluna və işğalçı dövlətin də bununla razılaşmasına çağırışdır. Azərbaycan Prezidenti İlham Əliyevin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 22-də keçirilən üçtərəfli görüşündən öncə ölkəmizin başçısının və Aİ Şurası Prezidentinin ikitərəfli görüşündə müzakirə olunan məsələlər də bu kimi məqamlara işıq salır.” Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə vurğulayıb ki, ötən ayın 6-da keçirilən Brüssel görüşündə Ermənistan Azərbaycanın irəli sürdüyü 5 prinsipi dəstəklədi: ”Həmin görüşdə əldə olunan razılaşmalar mayın 22-də də müzakirə mövzusu oldu. Üçtərəfli görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirdi ki, sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası yaxın günlərdə dövlətlərarası sərhəddə baş tutacaq. Bu iclasda sərhədlərin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq. Nəzərə alaq ki, Ermənistan sərhədlərin delimitasiyasına dair ilk görüşün iki ölkənin sərhədində keçirilməsi barədə təklif irəli sürmüşdü, Azərbaycan da bu təklifi dəstəkləmişdi. Amma Ermənistan artıq aprelin 29-na razılaşdırılmış görüşü ləğv etdi, daha sonra isə 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi barədə razılaşmanı icra etmədi. Ermənistan öhdəlikləri pozmaqla məqsədinin nədən ibarət olduğunu açıqlasa da, artıq dalana dirəndiyinin fərqindədir. Artıq tarixin arxivinə göndərilmiş Dağlıq Qarabağ münaqişəsinin həllində 28 il vasitəçilik missiyasının öhdəsindən gələ bilməyən ATƏT-in Minsk qrupunun bu missiyasının yenidən bərpa olunacağına edilən ümidlər sadəcə boş xəyaldan başqa bir şey deyil. Ermənistan nəhayət, mövcud reallıqlarla barışmalı, Avropa İttifaqının vasitəçilik səylərini yüksək dəyərləndirməlidir. Azərbaycan daim bütün beynəlxalq təşkilatların potensialından istifadə etmək istəyini hələ işğal dövründə bəyan etmişdir.”

YAP Xətai rayon təşkilatının sədri diqqəti Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin mətbuata açıqlamasında yer alan bu məqama yönəldib: ”Liderlər Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə razılığa gəliblər. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər. Şarl Mişel, həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini vurğulayaraq Avropa İttifaqının öz dəstəyini gücləndirməyə hazır olduğunu da bildirdi.”

”Dövlət başçısı İlham Əliyev sülh müqaviləsinin imzalanmasından bəhs edərkən gələcəyə baxmağa çağırışlar etməklə yanaşı, bu məqamı da diqqətə çatdırır ki, biz faciələrimizi, şəhidlərimizi unutmamalıyıq. Ölkə Prezidentinin bu çağırışı Ermənistana ünvanlanan mesajdır. Bu baxımdan ki, 30 ilə yaxın işğal dövründə, ümumiyyətlə, tarixin ayrı-ayrı zamanlarında azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirən Ermənistandır. Əsassız torpaq iddiaları nəticəsində 28 ilə yaxın dövrdə 20 faiz torpaqlarımızı işğal altında, bir milyondan artıq soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətində saxlayan Ermənistandır. 44 günlük Vətən müharibəsində döyüş meydanındakı uğursuzluqları ilə barışmayaraq mülki əhalini raket atəşinə tutan, bununla da qatı müharibə cinayətləri törədən də Ermənistandır. Bu sıralamanı xeyli davam etdirə bilərik. Azərbaycanın bu gün işğalçı dövlətə sülh təklifi bu yaşananları unutmasından irəli gəlmir. Sadəcə, bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına, münasibətlərdə yeni səhifənin açılmasına səy göstərir. Azərbaycan Ermənistandan fərqli olaraq tolerant və multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkədir. Ölkəmizdə müxtəlif millətlərin, etnik azlıqların, dinlərin nümayəndələri dostluq, qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan dövlətinin Ermənistana sülh təklifi, insanlar arasında əlaqələrin yaradılmasına xidmət edən birgəyaşayışın təmin olunması istiqamətində göstərdiyi səylər də onun tolerantlığının göstəricisidir”,- deyə Vüqar Rəhimzadə bildirib.

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, bütün hallarda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönələn hər bir görüş qalib Azərbaycanın beynəlxalq mövqeyinin təqdimatıdır: ”Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Qeyd edək ki, ötən ilin iyul ayında Şarl Mişel ölkəmizə səfəri zamanı qurumun sülh müqaviləsinə dəstəyi ilə bağlı fikirlərini səsləndirərək bunu dekabr ayında Şərq Tərəfdaşlığı Proqramının VI Sammiti çərçivəsində reallaşdırdı. Bugünədək Aİ Şurası Prezidentinin vasitəçiliyi ilə keçirilən 3 görüş bu istəyin reallığa çevrilməsi istiqamətində göstərilən səylərin aydın mənzərəsini yaradır. Brüssel görüşlərinin hər biri Azərbaycanın Brüssel Zəfəri kimi dəyərləndirilir. Görüşlərdə səsləndirilən bəyanatlarda da Avropa İttifaqının ölkəmizə dəstəyi özünü aydın şəkildə nümayiş etdirir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, həmçinin bəyanatında 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşmadan, 11 yanvar 2021-ci il tarixli Moskva və 26 noyabr Soçi görüşlərində imzalanan sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çağırışlar edir ki, bu da Azərbaycanın mövqeyinə böyük dəstəyin ifadəsidir.”

”Bugünədək keçirilən görüşlərdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib” söyləyən Vüqar Rəhimzadə bu ümumiləşdirməni aparıb ki, hər bir görüş Azərbaycanın tarixi Zəfərinin yaratdığı reallıqların həm regionda, həm də dünyada formalaşdırdığı yeni siyasətin prespektivlərinə işıq salır.

TƏHLİL + TƏKLİF

# Hanı yazıçılar, şairlər, rejissorlar, bəstəkarlar, rəssamlar...

*Hanı əsərlər, şeirlər, filmlər, mahnılar, rəsmlər..*

**Hadisə... bu altı hərfin birləşməsi gözlərimiz önündə sadə bir sözü yaratsa da, qulaqlarımızda sadə bir sözü səsləndirsə də, məna etibarilə o qədər sadə və kiçik deyil, mənasına, özündə ehtiva etdiklərinə görə dünya boydadır. Hadisə başlanğıcdır. Özündən sonra yarananların, yaradılacaqların başlanğıcıdır. Hadisə taledir, yaşanan alın yazısıdır. Hadisə dastan, roman, poema, povestdir. Hadisə şeirdir, bayatıdır, alqışdır, qarğışdır. Hadisə film, tamaşadır. Hadisə musiqidir, qulaqlara axaraq ya səni rəqsə, ya da bir küncə çəkilib dərdlərinlə baş-başa qalmağa dəvət edəndir. Hadisə həyatdır... Milyonlarla insan, milyonlarla alın yazısı, milyonlarla acıdır və bir o qədər də şirindir...**

2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ Müharibəsi də hadisəydi, həm də böyük bir hadisə. 30 ilin kədəriydi, acısı, qəhəriydi. Torpaq, ocaq, yurd təşnəsiydi. Namus, şərəf məsələsiydi. Təbiətin möcüzəsiydi, görünməmiş hadisə idi, payızın bahara çevrilməsiydi. Üç minədək balamızın şəhadəti, minlərlə oğullarımızın sağlamlığını itirməsiydi. Müharibə idi. Qonşuluqdan kənar olmuş qonşumuzun 30 il əsarətində saxladığı torpaqlarımızın azadlığı uğrunda müharibə idi. Bütün xalqın ayağa qalxdığı, Ali Baş Komandanın əmrini səbrsizliklə gözlədiyi hadisə idi. Hər kəsin cəbhəyə yollanmaq arzusunun hadisəsi idi. Düşmən od yağan silahlarını cəbhədən çox uzağa-rayonlarımıza, insanların yaşadığı ərazilərə tuşlayanda minlərlə həmyerlimizin təhlükəsi hadisəsi idi. Onların vətənpərvərlik hissi ilə evlərini bir saat da tərk etmədikləri, "ölsək də evimizdə öləcəyik, cəbhədəkilərdən artıq deyilik ki..." qürurunun hadisəsi idi.

44 gündə bir-bir torpaqlarımızın işğaldan azad edilməsi hadisə idi. Üçrəngli bayrağımızın azad torpaqlarda dalğalanması, igidlərimizin şücaəti, qəhrəmanlığı, Vətən, torpaq üçün canlarından keçmələri, gəncliyimizin mənəvi ucalığı hadisə idi. Hər bir şəhid, hər bir qazi, onlara ana olan payız, payızın hər bir yarpağı hadisə idi... Gözü yolda balasını gözləyən hər bir ana-ata, nişanlısını gözləyən qız, həyat yoldaşını gözləyən qadın, atasını gözləyən övlad, hələ doğulmamış körpələrin hər biri hadisə idi.

Böyük Zəfərimiz ən böyük hadisə idi. Bir qərinəyədək qaçqın, köçkün, didərgin statusu ilə yaşayanların yurdları azad olunduqca gözlərindəki sevinc yaşları hadisə idi. Minalardan təmizlənməkdə olan torpaqlara gedə bilməyib son nəfəsində "yurdum",- deyib, lakin qələbə göz yaşları axıdan ağbirçək nənə, ağsaqqal baba hadisə idi.... Hər gün şəhid qarşılayan, sinəsi dərdli ana-bacılar, beli bükük ata-qardaşların nisgili hadisə idi. Belə isə...

## Hadisə yaradıcılıqdır...

Həyatımızda, ətrafımızda baş verən hadisələrin hər biri bir yaradıcılıq mövzusudur. Biz İkinci Qarabağ Müharibəsinin birincisini-Birinci Qarabağ Müharibəsini də 30 il bundan əvvəl yaşamışdıq, həm də illərlə. Onun da hər anı hadisə idi. Kitablar yazıldı, bədii, sənədli filmlər çəkildi, şeirlər yazıldı, mahnılar bəstələndi. Çox sayda olmasa da, hadisələrə münasibət bildirildi. Yəqin ki, çoxlu kitab oxuyanlar, bədii film seyr edənlər, mahnı dinləyənlər məni yaxşı anlayarlar. Adam elə bir kitab oxuyur ki, həftələrlə təsirindən çıxa bilmir. Elə filmə baxır ki, göz yaşlarını saxlaya bilmir. Elə mahnı dinləyir ki, sanki ürəyinin axıb getdiyini hiss edir. Düzdür bu bənzətmələrdə olduğu kimi kitabları çox az sayda oxusaq da, filmlərə baxsaq da, mahnılar dinləsək də, ancaq yazıldı, çəkildi, bəstələndi, insafən.

44 gün ərzində bu qədər hadisənin baş verməsini kim görüb, deyə bilərmi? Bəs bu qədər mövzunun içərisində hanı yazıçılar, şairlər, rejissorlar, bəstəkarlar, rəssamlar... Hanı əsərlər, şeirlər, filmlər, mahnılar, rəsmlər...

## Bir bədii filmə baxmaq istərdik...

*"Uzaq sahillərdə"n yaxın Qarabağa*



Bir filmə baxmaq istərdik... Sovet dövründə azərbaycanlı Mehdi Hüseynzadənin İkinci Dünya Müharibəsində qəhrəmanlığını əks etdirən "Uzaq sahillərdə" filminə bənzəsin. Tamaşa edəndən günlər sonra təsirindən çıxa bilmədiyimiz "Uzaq sahillərdə"yə. Mehdinin zəkası, savadı, bacarığı, qabiliyyətini, Vətən sevgisini əks etdirən film kimi İkinci Qarabağ Müharibəsinin qəhrəmanları haqqında filmlərə baxmaq istərdik. Niyə də baxmayaq ki? Niyə biz "Uzaq sahillərdə"n Qarabağımıza gələ bilməyək? Axı uzaq sahilləri bizə zorla Vətən etmişdilər. Biz öz sahillərimizdən uzaqlara Vətənimizi qorumağa getsək də, ümumi "Vətənimiz" üçün idi bütün bunlar. 70 illik "Vətənimiz". Qəlbimizdə öz Vətənimiz, dilimizdə o "Vətənimiz". O "Vətən" uğrunda gedən döyüşlər haqqında bizim neçə-neçə bədii filmlərimiz var. Hamısı da ayrı-ayrılıqda təsiretmə gücünə malik. Yəni o filmlərin ssenarisini yazanlar, rejissorluğunu edənlər bizlər deyildik?..

Bir bədii film izləmək istərdik. Generalımız Polad Həşimovun vətənpərvərlik rəmzi olmasından, hər biri bir mövzu olan 2907 şəhidimizdən, 7 itkinimizdən, onların Mehdi Hüseynzadə kimi şücaətindən, təhsilindən, vətənpərvərliyindən, cəsarətindən, yarımçıq ömründən bəhs edən film. Birinci Qarabağ Müharibəsində şəhid olmuş ataların İkinci Qarabağ müharibəsində şəhid övladlarından, nəvələrindən, yaxın qohumlarından bəhs edən bir film. Tarixi tarixə bağlayan, faktlar toplusu olan bir film.

Bir film izləmək istərdik. Xüsusi təyinatlılarımızın Şuşaya sinələri, əlləri, dizləri ilə açdıqları yoldan, bu dağların sinəsinə pərçim şəhərin asad edilməsindən, o cəngavərlərin hünərindən, silahla yox, əlbəyaxa döyüşündən bəhs edən film.

Hansısa bir yazıçının cəsarət edib yaza biləcəyi, hansısa bir rejissorun ürək edib çəkə biləcəyi müzəffər sərkərdə, Ali Baş Komandandan bəhs edən bir filmə baxmaq istərdik. O filmə ki, torpaqlarımızın qayıtmasını reallaşdıran şəxsiyyətdən, ata nəsihətini həyata keçirən övladdan, yurd həsrətli insanların bağlı qapılarını açan rəhbərdən bəhs etsin.

## Bir poema oxumaq istərdik...

*"Komsomol" poemasından "Gənclər" poemasına*

Bir poema oxumaq istərdik. Səməd Vurğunun "Komsomol" poeması kimi. Adı da "Gənclər" poeması olardı kaş. Mövzuları tam başqa olsa da, "Komsomol"u yazan da azərbaycanlı idi. "Gənclər"i də yazacaq belə bir şair istərdik. O poemada minlərlə komsomolu 7 nəfər təmsil edirdi. Sovet İttifaqının Azərbaycanda qurulmasına dəstək göstərmələrindən, bunun üçün gəncləri sıralarına cəlb etmələrindən söhbət açırdı. Bu quruluş müstəqilliyimizin tənəzzülü üzərində qurulsa da, insafən bədii cəhətdən gözəl poema idi. Bəs 2907 şəhiddən, 7 itkindən nə üçün poema yazılmasın? Ərazi bütövlüyümüzə görə canından keçən, Qarabağın azadlığı üçün ömrü yarımçıq qalan, Vətənin harayına səs verən igidlərin hünərindən nə üçün poemalar yazılmasın?

Axı biz oxumaq istəyirik. Laçını, Şuşanı, Ağdamı, Kəlbəcəri, Zəngilanı və digər torpaqlarımızı azadlığa qovuşduranlardan, qanı bahasına Vətənə şərəf borcunu yerinə yetirənlərdən oxumaq istəyirik... Bir ananın əziz balasından, gözlərini yollara dikənlərdən, bir körpənin atasızlığından, bir qadının saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb şəhid övladı böyütməsindən, bir nişanlı qızın hələ də şəhid yolu gözləməsindən, bir uşağın şəhid atasının şəkli ilə nəfəs almasından bəhs edən poemalar, şeirlər oxumaq istəyirik. Bizim bunlara ehtiyacımız var. Biz qələbəmizi bu sətirlərdə görmək istəyirik. Zəfərimizi bu sətirlərdə tarixləşdirmək istəyirik.

Alın qələmi əlinizə, şairlər! 44 günün hadisələrinin hər biri bir mövzudur. Nə qədər yazsaq belə, bitməyən mövzular. Yazın, yazın ki, tarixdə əbədi qalsın. Həm də könüllərimizi oxşasın. Şəhidlərimizin ruhuna hədiyyə olsun.

## Bir musiqiyə qulaq asmaq, bir klipə baxmaq istərdik...

*"Sıravi Əhməd"dən generala, polkovnikə, leytenanta...*

Bir vaxtların "Sıravi Əhməd"i indi də dilimizdədir. Əhməd də bizim Əhməd idi. Ancaq sıravi Əhmədə yazılan mahnı dəyərində generalımıza, polkovnik, leytenantımıza mahnı yazılmayıb hələlik. Bəlkə 40 ilə yaxındır ki, yazılıb Əhmədə mahnı. O qədər gözəl bəstələnib ki, dillərdən düşmək bilmir. Lakin müharibədən iki il ötür, hələ yaddaşlara həkk olan belə bir mahnı eşidə bilmirik.

Deyərdim ki, mahnılar da, şeirlər də, hər hansı əsər də sanki canlıdır, özünəməxsus qoxuları var. Onları oxuyub dinlədikcə o məxsusi qoxunu alırsan, o əsərin içərisində, o mahnının ritmində, o şeirin misralarında olursan. Sanki burada baş qəhrəman sənsən. Hadisələr sənin ətrafında cərəyan edir. Belə isə bir mahnıya qulaq asmaq, hələ üstəlik bir klipə baxmaq istərdik. Qarabağımız uğrunda şəhid olmuş gənclərimizdən, evi-eşiyi dağıdılmış insanlardan, Gəncəyə, Bərdəyə atılan silahların dağıntılarını, insan talelərini özündə əks etdirən mahnılar dinləmək, kliplərə baxmaq istərdik. Elə mahnılara ki, dinlədikcə ürəyi sazlatsın, günlərlə təsiri altına düşək, elə klipə ki, olanları yaşatsın, dünyaya çatdırsın.

Türk müğənnisi Tarkan yaxınlarda pandemiyaya həsr etdiyi bir mahnısı ilə dünyanı ayağa qaldırdı. Biz nə üçün İkinci Vətən Müharibəsinin pandemiya qədər ağır nəticələri ilə dünyaya səsimizi salmayaq? Niyə bacarmayaq bunu? Axı bizlər Birinci Vətən Müharibəsindən sonra yazılan bir neçə mahnıları yazanlarıq. O mahnılar ki, indi də əlimizi atıb yalnız onlardan istifadə edə bilirik. Bir də axı o mahnıların zamanı keçib. O mahnılar Qarabağı azad etməyə çağırış idi. İndi isə Qarabağ azaddır.

Bir mahnı dinləmək istərdik. Qarabağ zəfərini misra-misra qəlblərə süzdürən, sətir-sətir ruhlara köçürən, not-not yaşadan bir mahnı. Demirik yoxdur, ancaq çox azdır. O qədər böyük qələbənin qarşısında çox azdır.

## Bir rəsm əsərinə tamaşa etmək istərdik...

Elə bir əsər ki, orada 44 günün payızının rəngləri ilə şəhid qanı harmoniya yaratsın. Payızın sarı yarpaqları şəhid rəsmlərinin çərçivəsi olsun. Payız ana olsun, alsın şəhidimi qoynuna, laylasını dinləyək o rəsmdən. Yarpaqlarının əsgərimizn başının altına yastıq olması əks olunsun o rəsmdə.

Danışsın o rəsm. Qarabağda müharibə meydanından, qandan, qırğından danışsın. Şəhidlərin 30 ildə susuzluqdan dili-dodağı cadar-cadar olan torpaqları qanları ilə suvardıqlarından bəhs etsin. O rəsmdə üç minədək şəhidimizin göylərin mavisinə, bəyazına qovuşan ruhların görək. Bayrağımızın mavisi rəngdə müstəqilliyimizi, qırmızısı rəngdə Zəfərimizi, yaşılı rəngdə cənnəti, o cənnətdəki gənclərimizin məsum üzlərini görək.

Elə bir rəsmə tamaşa etmək istəyirik ki, rənglər dil açsın, Qarabağın gözəlliyindən, 30 illik həsrətindən, hicranı vusala qurban verməsindən danışsın. İgidlərinin bağlı qapılara açar, yaralı qəlblərə məlhəm olmasından, vətənpərvər oğulları ilə qürurundan danışsın. Anası Azərbaycanın qoynuna qayıdışından, ta əbədiyyən azad olmasından danışsın.

Dillənsin o rəsm. Xarıbülbülün nəğməsini anlatsın. O nəğməni ürəklərimizə həkk etsin. O nəğmə ürəyimizdə, xarıbülbülün nişanı-nişanəsi sinəmizdə üst-üstə yaşatsın bu dastanı qəlbimizdə. Rəssamlar istəyirik, fırçalarını alıb əllərinə Qarabağa yollansınlar. Çoxlarımızın hələ də görmədiklərini tablolara köçürsünlər. Elə bir tabloya ki, o tək sakitcə baxmasın, danışsın, Qarabağdan, onun gözəlliklərindən, tarixi yerlərindən, mədəniyyət abidələrindən danışsın, dünyaya səs salsın...

Bədii, sənədli televiziya filmləri, tamaşalar, dəyərli mahnılar həm tarixi, həm mədəni, həm zəngin ədəbi nümunələrimiz baxımından qızıl fondumuzdur. Bunu hamımız çox gözəl bilirik. Ona görə də illərlə bu fondu qoruyub saxlamağa çalışır, nəsillərdən-nəsillərə ötürməyi özümüzə borc bilirik. Çünki bir hadisəni film, tamaşa, kitab qədər insana aşılayacaq ikinci bir vasitə yoxdur. Yaşanan hadisələr fonunda bir mahnı qədər insanı təsirləndirən ikinci bir vasitə yoxdur. Bir şeir qədər insanı duyğulandıran, bir bənd bayatı qədər kövrəldən başqa nə ola bilər... Bir bədii film, bir sənədli film, bir tamaşa illər sonra da hansısa bir dövrün güzgüsünə çevrilir. Bir roman, bir povest, bir dram əsəri yazıldığı dövrü illər sonra da anladır, sanki bu gün olubmuş kimi. Bir şeir, bir mahnı dinlənilən an insanı yazıldığı dövrə aparır, onunla bağlı bütün hadisələr gözlər önünə gəlir, yaddaş təzələnir, olanlar-keçənlər yenidən yaşanır... Elə bunlara görə də "Hanı yazıçılar, şairlər, rejissorlar, bəstəkarlar... hanı əsərlər, şeirlər, filmlər, mahnılar..." deyib onları axtarmayaq, onları yaratdıqlarına görə-təşəkkür etmək üçün axtaraq.

**Mətanət MƏMMƏDOVA**

# Şəhidlər ölməz, vətən bölünməz

*Tərtərdə şəhid Qənbər Qənbərlinin il mərasimi keçirilib*





Tərtər rayonunda Vətən müharibəsi şəhidi Qənbərli Qənbərin il mərasimi keçirilib. Mərasimdə Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, Rayon Ağsaqqallar şurasının sədri Faiq Məmmədov , hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, veteranlar, kənd sakinləri və din xadimləri iştirak etmişlər.Əvvəlcə şəhidin məzarı ziyarət edilmiş, məzarı üzərinə gül-çiçək dəstələri düzülərək şəhidlərin ruhuna dualar oxunmuşdur. Şəhidin il mərasimində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şücaətindən, Qənbər Qənbərlinin həyat və döyüş yolundan danışılmışdır. Bildirilib ki, Qənbərli Qənbər Bəhruz oğlu 1993-cü il sentyabrın 10-da Tərtər rayonunun Kəngərli kəndində anadan olub.Azərbaycan Ordusunun baş leytenantı Qənbər Qənbərli işğal altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda 44 günlük Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə sentyabrın 27-də şəhid olub. Uzun müddət nəşi tapılmayıb.

2021-ci il mayın 22-də nəşi tapılaraq Tərtər rayonunun Kəngərli kəndində dəfn olunub. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı diləyirik.

**Rəfiqə**

**Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı Mərkəzi Kitabxana Sistemi ərazi partiya təşkilatında 28 May - Dövlət Müstəqilliyi Günü münasibəti ilə "Müstəqilliyə aparan yol" mövzusunda tədbir keçirilib.**



# "Müstəqilliyə aparan yol"

*YAP Masallı rayon təşkilatında bu mövzuda tədbir keçirilib*

Əvvəlcə ulu öndər Heydər Əliyevin, eləcə də torpaqlarımızın azadlığı uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatı Mərkəzi Kitabxana Sistemi ərazi partiya təşkilatın sədri Əlhəddin Nəzərov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xilaskarlıq missiyasından, Vətəni və xalqı qarşısında misilsiz xidmətlərindən, Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə verdiyi taleyüklü qərarlar və atdığı tarixi addımlardan danışıb.

Daha sonra çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, Azərbaycan bir əsrdə iki dəfə dövlət müstəqilliyini elan edən nadir ölkələrdəndir. Müsəlman dünyasında ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də xalqımızın qədim dövlətçilik ənənələrini bərpa edərək, Şərqdə ilk müstəqil respublika kimi adını tarixə yazdı. Vurğulanıb ki, cəmi 23 ay yaşasa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin əsasını qoydu.

S.Əliyevin sözlərinə görə, Azərbaycanın müstəqillik yoluna qədəm qoyması məhz Heydər Əliyev fenomeni ilə bağlıdır. O dövrdə cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqilliyini bərpa etmiş ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. O da qeyd olunub ki, Heydər Əliyev ideyalarının ən etibarlı və sədaqətli davamçısı cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən islahatçı lider kimi ölkənin yeni inkişaf konsepsiyasını ortaya qoydu.

Partiya fəalları Arzu Hüseynova, Lətafət Əlirzayeva və başqaları da çıxışlarında dövlət müstəqilliyimizin əbədi, daimi və dönməz olmasında Ulu Öndərin müstəsna xidmətlərindən, bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

# YAP Biləsuvar rayon təşkilatında müsabiqə iştirakçıları ilə görüş keçirilib




Yeni Azərbaycan Partiyası Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 1-ci Rəqəmsal İdeya Müsabiqəsi keçirilmişdir. Müsabiqəni keçirməkdə məqsəd partiyanın gənc fəallarının innovasiya yönümlü potensiallarının aşkarlanması, komanda quruculuğu bacarığının təkmilləşdirilməsi və ölkəmizdəki innovasiya ekosistemində gənclərin iştirakının artırılması idi. Müsabiqədə respublikamızın 60 şəhər və rayonundan 1361 nəfər qeydiyyatdan keçmişdir. Müraciət edənlər arasından 23 fərqli şəhər və rayonu təmsil edən 120 iştirakçı layihədə iştirak şansı qazanıb ki, onlarından da biri YAP Biləsuvar rayon təşkilatının təmsilçisi Nərmin Xaqandır.

Yeni Azərbaycan Partiyasının gənc üzvlərinin böyük marağına səbəb olmuş müsabiqənin 19 may tarixində bağlanış mərasimi keçirilmişdir. Müsabiqədə komandalarla mübarizə apran iştirakçılardan qalib olanlar mükafatlandırılmış və iştirakçılara sertfikatlar təqdim edilmişdir. Müsabiqənin bağlanış mərasimində YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Təhsil naziri Emin Əmrullayev, Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və bir neçə Millət vəkili iştirak etmişdir. Müsabiqə iştirakçısı-YAP Biləsuvar rayon təşkilatının təmsilçisi Nərmin Xaqan müsabiqədən sonra YAP Rayon təşkilatında olmuş, müsabiqə barədə təəsüratlarını bölüşmüşdür. Müsabiqəyə qatıldığına və fəal iştirakına görə YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı Nərmin Xaqana təşəkkürünü bildirmiş və gələcək ictimai-siyasi fəaliyyətində ona uğurlar arzulamışdır.

**Rəfiqə**










# Vanqa hələ də rusların “ümidvericisidir”?

**Etiraf edilməlidir ki, bolqar görücü Vanqanın proqnozları tez-tez gerçəkləşir. Xatırladaq ki, hələ COVID-19 pandemiyasından əvvəl onun dostu Sergey Kostornoy bütün dünyada insanların bu xəstəlikdən əziyyət çəkəcəyini söyləmişdi. Qeyd edək ki, Vanqanın 2022-ci il üçün bir neçə öncəgörmələri var. SİA bu barədə rus saytına istinad edir.**

Beləliklə, Vanqanın 2022-ci il üçün proqnozları:

- üçüncü dünya müharibəsi baş verməyəcək,

-2021-ci ildə dünyanı boğan dəhşətli təbii fəlakətlər geri çəkiləcək.

-Yakutiyada meşələr artıq yanmayacaq,

-Kanar vulkanları sakitləşib yuxuya gedəcək.

Maraqlıdır ki, bolqar görücünün bəzi proqnozları hələ də tutqun səslənir.

Diqqət yetirin:

-Bəşəriyyət uzun müddətdir ki, əbədi donda yatmış Sibirdən gələcək yeni bir xəstəliklə boğulacaq.

-Qlobal istiləşmə səbəbindən virus çıxacaq və insanların həyatına son qoyacaq.

...Amma insanlar bu şəraitdə yaşamağı öyrənəcək və bəlanın sonunu gözləyə biləcəklər.

Həmçinin, dünyanın bəzi regionlarında ciddi içməli su qıtlığı başlayacaq və Hindistan aclıqla üzləşəcək - bunun səbəbi isə anomal istilər olacaq.





**Rusiya Qərblə ümumi dil tapa bilməyəcək, lakin Çində özünə müttəfiq tapacaq**



© Felipe Dana/AP Photo/picture alliance



Vanqanın öncəgörmələrinə istinad edən Rusiyanın ”Beşinci kanal”ı Rusiyanın Qərblə ümumi dil tapıb yaxınlaşa bilməyəcəyini, lakin Çində özünə müttəfiq tapacağını bildirib.

Yeri gəlmişkən, hələ 1979-cu ildə Rusiyanın ”Veçernyaya Moskva” nəşri Vanqanın guya uzun illər əvvəl Rusiyanın ”şanlı gələcəyi”ndən danışdığı barədə yazı veribmiş.

Maraqlıdır ki, ruslar hələ də həmən yazıdan aşılanan fikirləri özləri üçün şüar tutub gedirlər: ”Heç kəs Rusiyanı dayandıra bilməyəcək. Dünyanın tək super gücü və sahibi Rusiya olacaq”.

Qeyd edim ki, Vanqanın, guya ruslar barədə dediyi bu fikirlər, elə rusların özləri tərəfinfən də tirajlanır. Çünki bu fikirlər bolqar görücünün yazılı mənbələri arasında yoxdur, sadəcə olaraq, guya Vanqa bu fikirləri 1979-cu ildə onu ziyarət edən rus yazıçışı Valentin Sidorova deyib. Bəlkə də, bu gün ruslara ”dünyaya sahib olacaqlarına inam” verən də elə budur.

...Amma, nə təəssüflər ki, ruslara belə bir gözəl müjdə gətirən Valentin Mitrafanoviç Sidorov ”Rusların dünyada tək super güc və sahibi olduğu” günü görmədən 1999-cu ildə bu dünyadan köçdü.

***Ağasəf Babayev***

# ATƏT Ermənistanla Azərbaycan arasında birbaşa dialoqu alqışlayır

**ATƏT-ə sədrlik edən Polşanın nümayəndəsi Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyevin arasında keçirilən görüşü şərh edib. SİA xarici mənbələrə istinadən xəbər verir ki, nümayəndəlik Ermənistan və Azərbaycanın Avropa İttifaqının dəstəyi ilə keçirilən görüşü alqışladığını bildirib.**

”Birbaşa dialoq münasibətlərin normallaşması və hərtərəfli sülh sazişinin hazırlanması üçün zəruri ilkin şərtdir. Biz sülhü təmin etmək üçün səylərə töhfə verməyə hazırıq. Cənubi Qafqaz üçün dinc, demokratik və firavan gələcək qurulacağına əminik”, - bəyanatda deyilir.

### Brüsseldəki görüş haqqında

Mayın 22-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa Şurasının sədri Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Avropa İttifaqı Şurasının prezidenti Çarlz Mişelin görüşün yekunlarına dair bəyanatına görə, Paşinyan və Əliyev xüsusilə Şərqi Zəngəzurla Azərbaycanın Naxçıvan Muxtar Respublikası və Ermənistanın müxtəlif bölgələri arasında Azərbaycan ərazisindən keçməklə tranzit, eləcə də beynəlxalq daşımaları tənzimləyən prinsiplər barədə razılığa gəliblər.

Onlar həmçinin Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün gələcək sülh müqaviləsinin müzakirəsini davam etdirmək barədə razılığa gəliblər. Bu kontekstdə Ş.Mişel ”Qarabağdakı etnik erməni əhalisinin hüquqları və təhlükəsizlik məsələlərinin həllinin” zəruriliyini vurğulayıb.



# Qarabağın bərpası və əhalinin məskunlaşmasını necə sürətləndirmək olar?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***Erməni işğalından və istismarından xilas edilən yerüstü və yeraltı təbii sərvətlər ölkəmizə çox böyük iqtisadi fayda gətirəcək. İndiyədək Ermənistan bu əraziləri qanunsuz istismar edib, milyardlarla dollarlıq sərvəti mənimsəyib. Əvəzində Qarabağın demək olar ki, hər yerini xaraba qoyub. İndi bu bölgə tamamilə yenidən qurulmalı, məcburi köçkünlərin ora qayıtması təmin olunmalıdır. Bu çox nəhəng və çətin bir işdir, amma qeyri-mümkün də deyil.***

Hələ keçən il Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan işğal altındakı Azərbaycan torpaqlarında yağmalama ilə məşğul olduqlarını etiraf etmişdi. O deyib ki, müharibəyə qədər Qarabağda təxminən 100 min ton buğda yığılırdı, bir neçə su elektrik stansiyası işləyirdi. İndi isə həm taxıl sahələri, həm də su elektrik stansiyaları Azərbaycanın nəzarətinə keçib.

Bu açıqlama Ermənistanın illərdir Azərbaycan ərazilərindəki zənginlikləri talamasının daha bir sübutudur. Bundan başqa, Ermənistan Qarabağın və Şərqi Zəngəzurun yeraltı sərvətlərindən milyardlarla dollar əldə edib.

Bəzi qanunsuz talanlarla bağlı Azərbaycan prokurorluğunda cinayət işləri açılıb. Dəfələrlə beynəlxalq təşkilatlara müraciət edilib. Lakin indiyədək heç bir reaksiya verilməyib. İşğaldan azad olunmuş Azərbaycan torpaqlarında 160 müxtəlif qiymətli metal yatağı var idi və 30 il ərzində Ermənistan bunları istismar edib. Bölgədə qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər yataqları mövcuddur.

İndiyədək Ermənistanın ixracında mühüm yer tutan dağ-mədən məhsulları sırasında qızıl, mis, sink filizləri və konsentratlarının, həmçinin qiymətli metalların xeyli hissəsi Azərbaycanın işğal olunmuş ərazilərindəki Söyüdlü (Zod), Qızılbulaq, Vejnəli qızıl, Mehmana polimetal və Dəmirli mis-porfir yataqlarından hasil olunurdu.

Bundan əlavə, meşələrin qırılaraq satılması, su mənbələrinin vəhşicəsinə istismarı, həmin ərazilərdə narkotika plantasiyaları salınması kimi cinayət işləri də beynəlxalq məhkəmədə qaldırılmalıdır.

Prezidentin tapşırığına əsasən vətəndaşların mülkiyyəti, infrastruktur, mədəniyyət abidələri ilə yanaşı, həm də Azərbaycana məxsus təbii resursların qeyri-qanuni istismarı haqqında materiallar əsasında Ermənistanın Azərbaycana vurduğu zərərlər qiymətləndirilir. Bəzi məlumatlara görə, söhbət ən azı 100 milyard dollarlıq təzminat tələbindən gedir.

Erməni işğalından və istismarından xilas edilən yerüstü və yeraltı təbii sərvətlər ölkəmizə çox böyük iqtisadi fayda gətirəcək. Buradan əldə edilən gəlirlər Qarabağın bərpası və yenidənqurması üçün böyük töhfə verəcək.

Əsas məsələlərdən biri də, ərazilərin minalardan təmizlənməsindən sonra əhalinin- Qarabağdan didərgin düşmüş məcburi köçkünlərin orada məskunlaşdırılması ilə bağlıdır. Bu çox nəhəng bir işdir. Çünki söhbət 10 şəhərin, yüzlərlə kənd və qəsəbənin, minlərlə inzibati binanın, on minlərlə binanın,



evin və digər obyektin bərpasından, böyük bir infrastruktur sistemlərinin və nəqliyyat yollarının yenidən qurulmasından, 1 milyona yaxın qarabağlının öz yurdlarına qayıtmasından gedir. Bu boyda yükün öhdəsindən dövlət təkbaşına gələ bilməz. Buna görə də, dövlətin gördüyü işlərlə paralel olaraq, vətəndaşların da burada iştirakı təmin olunmalıdır. Bəs bu necə mümkün ola bilər?

Fikrimizcə, bir çox vətəndaşlar bir neçə il gözləməkdənsə, öz doğma kəndlərindəki öz evini yenidən tikməyə hazırdır. Belələri o qədər də az deyil. Belə vətəndaşlara dövlət yardım etməlidir- məsələn, onlara güzəştli, uzunmüddətli kreditlər verilə bilər, bir sıra sosial güzəştlər tətbiq oluna bilər, əlavə torpaq sahəsi ilə təmin oluna bilər. Bu halda on minlərlə qarabağlı özünə ev tikib, təsərrüfat yaradıb orada yaşaya bilər.

Bundan başqa, yerli investorlar da bu işə cəlb oluna bilər. Məsələn, orta və iri sahibkarlara orada müxtəlif müəssisələrin, sosial və biznes obyektlərinin tikilməsi üçün müxtəlif güzəştlər edilə bilər, vergi güzəştləri və s. Bu halda qısa müddətdə xeyli quruculuq işləri görülmüş ola bilər. Bir sözlə Qarabağın yenidən qurulmasında həm dövlətin, həm də vətəndaşların birgə əməyi olar. Və bir sıra ölkələrdən böyük olan bu ərazinin daha qısa müddətdə yenidən qurulması mümkün olar.

Bunun üçün lazımi maliyyə mənbələri də yetərincədir. Bir tərəfdən dünya bazarında neft və qazın bahalaşması ölkələmzə əlavə milyardlar qazandırır. Digər tərəfdən 55 milyardlıq strateji valyuta rezervlərimizin müəyyən bir hissəsindən istifadə edə bilərik. Nəticədə, xarici fondlarda 1 faizlə saxlanan bu vəsaitlər, ölkə iqtisadiyyatına qoyulsa dəfələrlə daha çox gəlir qazandırar.

Hazırda bərpa və quruculuq iuşləri davam edir. Müharibədən keçən müddət ərzində ərazinin minalardan təmizlənməsi işləri sürətlənib, elektrik, su, qaz xətlərinin, avtomobil və dəmiryolunun çəkilməsi işləri sürətlə davam edir. Füzulidə beynəlxalq aeroportun tikilməsi, daha 2 aeroportun tikiləcəyi, Bakı-Naxçıvan dəmiryolunun dağıdılmış hissələrinin sürətlə bərpası işləri, parallel olacaq eyni marşrut üzrə avtomobil yolunun çəkilməsi işləri, Fizuli-Şuşa avtomobil yolunun tikilməsi, ərazidəki şəhər və kəndlərə elektrik, qaz, su, telefon, internet xətlərinin çəkilməsi, aqrar sahədə məhsul yığımının təşkili və bu kimi işlər göstəri ki, tezliklə bu ərazidə böyük canlanma yaranacaq.

Hazırda azad edilmiş şəhər və kəndlərin baş planları hazırlanır və tezliklə layihə üzrə böyük bərpa işlərinə başlanacaq. Ağıllı şəhərlər və kəndlərin tikiləcəyi, meşələrin və yaşıllıq sahələrinin salınacağı



bu bölgə təmiz ekoloji region kimi dünyada tanınacaq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tezliklə ölkəmizin ən inkişaf etmiş regonlarına çevriləcəyinə şübhə yoxdur. Bunun üçün həm təbii-coğrafi, həm insan resursu, həm iqtisadi-maliyyə imkanları yetərincədir. Ərazilərin bərpasında xarici kapitalın da iştirakı nəzərdə tutulub. Artıq bir sıra ölkələr buraya investisiya qoymağa hazır olduğunu bildirib.

Bu bölgənin bərpasından sonra burada qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin sayı xeyli artacaq ki, bu da əlavə iş yerləri və əlavə məhsul istehsalı deməkdir. Nəticədə ölkədə mal bolluğu yaradacaq ki, bu da qiymətlərin ucuzlaşmasına səbəb olacaq. Yeni istehsal və xidmət obyektlərinin açılması nəticəsində ümumdaxili məhsulun həcmi, dövlət büdcəsinin gəlirləri xeyli artacaq.

İşğaldan azad edilmiş rayonların hesabına turizm, nəqliyyat-logistika və aqrar sektorda ciddi artımlar əldə olunacaq. Ölkənin su ehtiyatının üçdə birini təşkil edən ərazinin su ehtiyatları digər rayonların da su təchizatında böyük töhfə olacaq.

Ölkədə əhalinin ərazilər üzrə demoqrafik balansı yaxşılacacaq, belə ki, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir kimi iri şəhərlərlə məskunlaşmış məcburi köçkünlər azad edilmiş ərazilərə qayıtdıqdan sonra, ölkə əhalisi ölkə ərazisi üzrə normal paylaşılmış olacaq, bu şəhərlərin yükü azalacaq.

Zəngəzur Dəhlizinin açılması təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün deyil, bütün ölkəmiz üçün xeyli dividentlər verəcək. Naxçıvanın blokadası götürülmüş olacaq, Türkiyə və Avropaya daha qısa yol əldə ediləcək, bu dəhlizin Böyük İpək Yoluna qoşulması ilə ölkəmiz tranzitdən xeyli gərli əldə edəcək, xarici ölkələrlə ticarət imkanları daha da artacaq.

Bu, əlbəttə asan iş deyil, çox nəhəng iqtisadi-maliyyə təminatı, böyük zəhmət və vaxt, ən əsası düzgün idarətmə və düşünülmüş strategiyanın tətbiqini tələb edir. Dövlətimizin və xalqımızın bunun üçün həm lazımi imkanları, həm də iradəsi var. Bu o deməkdir ki, artıq Azərbaycanı dünyanın inkişaf etmiş qüdrətli dövlətlərindən birinə çevirmək üçün qarşıda heç bir problem qalmayıb.

Dövlət başçısı bununla bağlı öz qəti siyasi iradəsini ortaya qoyub və Azərbaycan ardıcıl olaraq bu hədəfə doğru irəliləyir. Tarix və təcrübə göstərdi ki, Prezident İlham Əliyev verdiyi sözlərin hamısını yerinə yetirir. Demək, Qarabağın dünyanın ən gözəl və inkişaf etmiş bölgəsinə çevrilməsi də baş tutacaq.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
24 may
2022-ci il



# Türk futbolçu Dortmund "Borussiya"sında

**Dortmund "Borussiya"sı daha bir futbolçunu transfer etdiyini açıqlayıb. Almaniya klubunun saytında yer alan məlumatda deyilir ki, Almaniya təmsilçisi "Köln"dən Salih Özcanı alıb. 24 yaşlı yarımmüdafiəçi ilə 30 iyun 2026-cı ilə qədər müqavilə imzalanıb.**

Qeyd edək ki, S.Özcan Almaniyanın bütün yaş qruplarından ibarət gənclər komandalarında oynayıb, 21 yaşadək komandada Avropa çempionu olub. Lakin sonra 2022-ci ilin martında debüt etdiyi Türkiyənin böyüklərdən ibarət millisində oynamağı seçib.

# "Bu şəxslər meymun çiçəyinə YOLUXMAYACAQLAR"



## İnfeksionistdən AÇIQLADI:

***Koronavirus təhlükəsini geridə qoyduğumuz bu günlərdə ikinci bir infeksion xəstəlik - meymunçiçəyi ilə bağlı narahatlıqlar artır. Koronavirusa yoluxma zamanı mütəxəssislər növbəti 6 ay ərzində təkrar yoluxmanın olmayacağını, olarsa, xəstəliyi yüngül keçirəcəyimizi bildirirdilər. Bəs koronavirus keçirmiş insanların meymunçiçəyi virusuna yoluxmaq ehtimalı nə qədərdir?***

Məsələ ilə bağlı Sfera.az-a danışan infeksionist Nicat Əzimli yeni yayılan xəstəliyə yoluxmamağın iki halda mümkün olduğunu deyib: "Koronavirusla meymunçiçəyi virusu tamamilə ayrı viruslardır. Birini keçirən insan digərinə qarşı immunitet qazanmır. Yəni koronavirusa yoluxmuş insan sağaldıqdan sonra, hətta koronavirusla xəstə ikən meymunçiçəyinə də yoluxa bilər. Meymunçiçəyinə yoluxmamaq üçün ya həmin xəstəliyi keçirmiş olmaq, ya da ömürlük immunitet verən çiçək vaksinini almış olmaq lazımdır. Bu da hazırda 1980-ci illərdən öncəki çiçək vaksinasiyasında iştirak etmiş şəxslərə aiddir".

İnfeksionist xəstəliyin dinamikası məsələsinə də toxunub: "Vəziyyətin necə dəyişəcəyi haqda indilik heç nə demək mümkün deyil. Çünki ÜST belə bunun haqda fikir bildirmək üçün zamana ehtiyac olduğunu qeyd edir. Onu da bildirim ki, hazırda aşkarlanmış xəstələrin təmasda olduğu şəxslər içindən də yeni xəstələr çıxmaq ehtimalı var. Bunun da olub olmayacağını zaman göstərəcək".

VACİB MƏQAMLAR

# Uşaqlar zəkanı kimdən alır?



"Ümumiyyətlə, uşaqalarda zəka doğulan gündən etibarən inkişaf edir. Adətən belə deyilir ki, uşaq zəkanı atasından və ya anasından alır. Amma zəka inkişaf etdirdikcə inkişaf edən bir prosesdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib.

Onun sözlərinə görə, valideynlərə məsləhət olunur ki, hər yaş artdıqca uşağın istər məntiq səviyyəsini, istər zəkasını, istər sosiallığını yoxlatdırmaq lazımdır: "Əgər uşaq evdə oxuyan bir ata görürsə, o oxuyan olacaq. Uşaq əlində kitab olan bir ana görürsə, onun kitaba marağı olacaq".

Psixoloq sözlərinə belə davam edib: "Adətən bizim uşaqlar dediklərimizi deyil, etdiklərimizi edirlər. Ona görə də uşaqlar adətən ətraf, mühit və doğulduğu evdən zəkanı alırlar. Uşaqlarda zəkanı artırmaq üçün düzgün qidalanma, hər yaşa uyğun düzgün vitaminlərin alınması vacibdir".

***Ayşən Vəli***

# Bakıda mənzildən 62 min dollar oğurlanıb

**Bakıda mənzildən 62 min dollar oğurlanıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə M.Hadi küçəsindəki mənzillərin birindən seyfdən 62.000 ABŞ dollarının oğurlanması barədə müraciət daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Babək rayon sakini, əvvəllər məhkum olunmuş Ramis Əhmədov və Bakı şəhər sakini Camal Sultan müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.**



# 82 yaşlı qadın verilişə getmək üçün evdən çıxıb itkin düşdü



Tovuzda itkin düşən şəxs axtarılır. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan SİA-ya verilən məlumata görə, Tovuz rayon Hunanlar kənd sakini, 1940-cı il təvəllüdlü Firuzə Yusifova may ayının 16-da yaşadığı evdən çıxaraq Bakı şəhərində yerləşən "ARB" telekanalına gedib və bir daha geri qayıtmayıb. Sonuncu dəfə həmin telekanalın inzibati binasının yaxınlığında görülən şəxsin əlamətləri belədir: Boyu 160 sm, saçları ağ rəngdədir, arıq bədən quruluşludur. Evdən çıxarkən onun əynində göy rəngli don və ağ rəngli köynək olub. Şəkildə gördüyünüz şəxsi tanıyanlardan və barəsində məlumatı olanlardan DİN-in "102 Zəng Mərkəzi" Xidmətinə, həmçinin 022-315-00-94 şəhər və (070) 213-64-00 mobil nömrəsinə zəng vuraraq məlumat vermələri xahiş olunur.

## ELAN

Bakı şəhəri Xətai rayonu M. Hadı küçəsi 63. m.91 ünvanda yaşayan Səfərli Səfər Hakim oğlunun adına verilmiş AA2778965 seriyalı şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220